## PREZİDENT İLHAM ƏLİYEV “AZERSPACE-2” PEYKİNİN ORBİTƏ BURAXILMASI MÜNASİBƏTİLƏ XALQIMIZI TƏBRİK EDİB

Azərbaycanın “Azerspace-2” peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib. Dövlətimizin başçısı deyib: “Əziz həmvətənlər. Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün “Azerspace-2” peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını...



Bax səh. 2

## ROMA PAPASI FRANSİSK İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfəri çərçivəsində sentyabrın 26-da Roma Papası Fransisk ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, əməkdaşlığımızın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulanıb. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyi qeyd edilib. Söhbət zamanı Heydər Əliyev Fondunun...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 27 sentyabr 2018-ci il, cümə axşamı / № 182 (5309). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan cüdoçusu dünya çempionatında gümüş medal qazanıb




*Prezident İlham Əliyev Milli Gimnastika Arenasında final görüşünə baxıb*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Gəncə şəhərində yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Mədət Qəzənfər oğlu Quliyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Qızılağac Milli Parkının yaradılması haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədova təbrik məktubu göndərib.

### “Azerspace-2” peykinin orbitə çıxarılması Azərbaycanın növbəti böyük uğurudur

Sentyabrın 26-da müstəqil Azərbaycanın həyatında daha bir əlamətdar hadisə yaşanıb - Prezident İlham Əliyevin rəhbərliyi ilə ərsəyə gələn, Azərbaycanın üçüncü peyki olan “Azerspace-2” telekommunikasiya peyki Bakı vaxtı ilə...



Bax səh. 2



## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV “ADEX-2018” ÜÇÜNCÜ AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİ İLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 26-da Bakı Ekspo Mərkəzində “ADEX-2018” üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki...

Bax səh. 5

## AZƏRBAYCAN PARLAMENTİNİN 100 İLİ: MÜSTƏQİL DÖVLƏTÇİLİYİN ƏVƏZEDİLMƏZ DAYAĞI

Milli Məclis özünün yubileyini qeyd etdi. Azərbaycan müsəlman Şərqində ilk dəfə olaraq bir əsr bundan öncə demokratik parlament yarada bildi. Qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, parlament bir sıra demokratik qanunlar qəbul edə bildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqil dövlətin atributlarını məhz həmin dövrdəki parlament qəbul edib. Azərbaycanın gerbi, bayrağı, bayraqdakı rənglərin mənası 100 il bundan öncənin bizə verilən qiymətli əmanətləridir. Çox yaxşı ki, indi müstəqil dövlətçiliyimiz əmin əllərdədir. Ölkə rəhbərliyi öz səmərəli və milli maraqlara tam uyğun olan siyasəti ilə Azərbaycanın suverenliyini qoruyur və inkişaf etdirir. Milli Məclisin 100 illik yubileyinə həsr edilmiş təntənəli iclasda Prezident İlham Əliyevin söylədiyi nitq olduqca dərin və əhatəli olub. Yuxarıda vurğulanan məqamlar kontekstində həmin nitqin bir sıra məqamları üzərində geniş dayanmağı lazım bildik. Parlament hər bir demokratik müstəqil dövlətin simasıdır...

Bax səh. 4



## YAXIN ZAMANLARDA DƏRMAN VASİTƏLƏRİNİN ÖLKƏMİZƏ GƏTİRİLMƏSİ QAYDALARI SADƏLƏŞDİRİLƏCƏK

Sentyabrın 26-da Nazirlər Kabinetində dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi məsələləri ilə bağlı iclas keçirilib...

Bax səh. 5

### Azərbaycanın üçüncü peyki “Azerspace-2” uğurla orbitə buraxılıb

Sentyabrın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında ərsəyə gələn, Azərbaycanın üçüncü peyki olan “Azerspace-2” telekommunikasiya peyki Bakı vaxtı ilə saat 2:38 radələrində Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən uğurla orbitə buraxılıb. Peyk Fransanın “Arianespace” şirkətinə məxsus “Ariane 5” daşıyıcı raketi ilə orbitə buraxılıb və startdan təqribən 42 dəqiqə sonra raketin gövdəsindən uğurla ayrılıb. “Azərkosmos” ASC-dən AZƏRTAC-a bildirilib ki, “Azerspace-2” peyki ABŞ-ın “Space Systems/Loral” (SSL) şirkəti tərəfindən yüksək etibarlı “SSL 1300” peyk platforması əsasında istehsal olunub. Peyk geostasionar orbitdə 45° şərq uzunluğu orbital mövqeyində fəaliyyət göstərəcək. “Azerspace-2” peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək. Qeyd edək ki, yeni peykin istismarı üçün Bakıda və...

Bax səh. 6

### Bakıda Ukraynanın müstəqillik günü münasibətilə rəsmi qəbul təşkil edilib

Sentyabrın 26-da Bakıda Ukraynanın dövlət müstəqilliyinin 27-ci ildönümü və Ukrayna dövlətçiliyinin 100 illik yubileyi münasibətilə...



Bax səh. 6

### Dövlət Komitəsinin sədri Gürcüstanın Azərbaycandakı səfiri ilə görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 26-da Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri...



Bax səh. 5

### “KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması” mövzusunda təlim keçirilib

Sentyabrın 26-da “KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması” mövzusunda...



Bax səh. 5

### *Hikmət Hacıyev:* Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb

Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb. O, yenə də beynəlxalq...



Bax səh. 7

# Azərbaycan cüdoçusu dünya çempionatında gümüş medal qazanıb

*Prezident İlham Əliyev Milli Gimnastika Arenasında final görüşünə baxıb*




Bakıda cüdo üzrə dünya çempionatı davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləyiblər.

Çempionatın yeddinci günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bilib. Uşanqi Kokauri belaruslu Vladislav Tsiarpitskiyə, Polşa idmançısı Masiey Sarnackiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltıboevə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə gürcüstanlı Quram Tuşişviliyə məğlub olan cüdoçumuz gümüş medalla kifayətlənib.



2016-cı ildə Avropa kubokunun qalibi olan Uşanqi Kokauri həmin il Kazanda keçirilən Avropa çempionatının bürünc medalını qazanıb.

Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.

# Prezident İlham Əliyev "Azerspace-2" peykinin orbitə buraxılması münasibətilə xalqımızı təbrik edib

Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib.



Dövlətimizin başçısı deyib: **"Əziz həmvətənlər.**

**Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün "Azerspace-2" peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkəmizin növbəti qələbəsidir, dövlətimizin növbəti uğurudur.**

**Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azerspace-1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azerspace-2".**

**Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Eyni zamanda, gələn ay biz müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Biz "Azerspace-2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.**

**Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.**

**Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.**

**Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır. Eyni zamanda, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk.**

**İnfrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyəti var. Kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi - bütün bu işlərdə "Azersky" müşahidə peykinin xüsusi rolu var.**

**Bir sözlə, əziz vətəndaşlar, əziz dostlar, bu gün ölkəmizin həyatında növbəti əlamətdar bir gündür. Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək.**

**Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun".**

# "Azerspace-2" peykinin orbitə çıxarılması Azərbaycanın növbəti böyük uğurudur

***Prezident İlham Əliyev:*** *Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir*

*Sentyabrın 26-da müstəqil Azərbaycanın həyatında daha bir əlamətdar hadisə yaşanıb - Prezident İlham Əliyevin rəhbərliyi ilə ərsəyə gələn, Azərbaycanın üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peyki Bakı vaxtı ilə saat 2:38 radələrində Fransa Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən uğurla orbitə buraxılıb. Peyk Fransanın "Arianespace" şirkətinə məxsus "Ariane 5" daşıyıcı raketi ilə orbitə buraxılıb və startdan təqribən 42 dəqiqə sonra raketin gövdəsindən uğurla ayrılıb.*

*"Azərkosmos" ASC-dən verilən məlumata əsasən, "Azerspace-2" peyki ABŞ-ın "Space Systems/Loral" (SSL) şirkəti tərəfindən yüksək etibarlı "SSL 1300" peyk platforması əsasında istehsal olunub. Peyk geostasionar orbitdə 45° şərq uzunluğu orbital mövqeyində fəaliyyət göstərəcək. "Azerspace-2" peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək.*




Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev "Azerspace-2" peykinin orbitə buraxılması münasibətilə xalqımızı təbrik edib. Dövlət başçısı üçüncü peykin orbitə buraxılmasını ölkəmizin, növbəti qələbəsi, dövlətimizin növbəti uğuru kimi səciyyələndirərək vurğulayıb: **"Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir".**

Azərbaycanın üçüncü peykinin orbitə buraxılması əlamətdar tarixlər ərəfəsində baş tutub. Məlum olduğu kimi, 2018-ci ildə respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi qeyd olunur. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Eyni zamanda, gələn ay respublikamızın müstəqilliyinin bərpasının 27-ci ildönümü qeyd ediləcək. Prezident İlham Əliyev xalqımıza ünvanladığı təbrikində bildirib ki, biz "Azerspace-2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.

## AZƏRBAYCANIN ORBİTƏ ÇIXARDIĞI PEYKLƏRİN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ BAXIMINDAN ÇOX BÖYÜK ƏHƏMİYYƏTİ VAR

Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycanın qısa müstəqillik tarixində kosmik sənayeyə malik dövlətə çevrilməsi və dünya kosmik ailəsinə daxil olması son dərəcə qürurverici haldır. "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında dövlət başçısının imzaladığı müvafiq sərəncamlar ölkəmizin dünya kosmik ailəsinə inamlı inteqrasiyasını təmin edib. Dövlət başçısının 3 may 2010-cu il tarixli Sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) təsis edilib. "Azərkosmos"un yaradılmasında əsas məqsəd ölkədə kosmik sənayeyə aid milli məhsul istehsalını təmin etməkdən ibarətdir. ASC-nin yaradılmasından təxminən 3 il sonra, 2013-cü il fevralın 8-də "Azerspace-1" peyki uğurla orbitə çıxarılıb. "Azərkosmos" tərəfindən idarə edilən "Azerspace-1" peyki 46° şərq uzunluğu orbital mövqeyində yerləşir və Avropa, Afrika, Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya regionlarını əhatə edir. Ən azı 15 il müddətində orbitdə fəaliyyət göstərəcək peykin faydalı yükü 36 transponderdən ibarətdir. 2014-cü ilin dekabr ayından etibarən "Azərkosmos" sayca ikinci, təyinatına görə yüksək ayırdetməli (1,5 m ayırdetmə) Yer səthinin məsafədən müşahidə peyki olan "Azersky"ın idarəçiliyini təhvil alıb və bununla da geoinformasiya xidmətləri də daxil olmaqla Yer səthinin məsafədən müşahidəsinin kommersiya fəaliyyətinə başlayıb. Şirkətin strateji inkişaf planlarına əhatə dairəsinin və xidmətlər spektrinin genişləndirilməsi daxildir. Bu məqsədlə, 2018-ci il sentyabrın 26-da Azərbaycanın sayca üçüncü peyki - "Azerspace-2" telekommunikasiya peyki uğurla orbitə buraxılıb.

*"Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir"*

Azərbaycanın orbitə çıxardığı peyklərin ölkəmizin milli təhlükəsizliyi, o cümlədən də informasiya təhlükəsizliyi baxımından çox böyük əhəmiyyəti var. Bu amilə diqqət çəkən Prezident İlham Əliyev **"Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir"**, - deyə vurğulayıb.

## AZƏRBAYCAN KOSMİK SƏNAYE SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞINI DƏRİNLƏŞDİRİR

Müasir və nümunəvi inkişaf modelinə malik olan Azərbaycanın beynəlxalq əlaqələri getdikcə genişlənir. Ölkəmizin dünya kosmos ailəsinin üzvlüyünə daxil olması da xarici tərəfdaşlarla sıx işbirliyi çərçivəsində mümkün olub. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos"un fəaliyyəti beynəlxalq əməkdaşlığa yaxşı nümunədir. Hazırda "Azərkosmos" dünyaya telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksəkkeyfiyyətli peyk xidmətləri təqdim edir. "Azərkosmos"un xidmətlərinin alıcıları əsasən xarici ölkələrdəki qurumlar olduğundan onun fəaliyyəti ixraca istiqamətlənib. Belə ki, şirkətin idarəçiliyində olan "Azerspace-1" peykinin gəlirlərinin 80 faizi, "Azersky" peykinin gəlirlərinin 98 faizi xarici bazarlarda formalaşır. "Azərkosmos"un hazırda dünyanın 25-ə yaxın ölkəsində 100-dən çox özəl və dövlət şirkətlərinin daxil olduğu sabit müştəri bazası mövcuddur. Bu gün Reuters, MTV, National Geographic kimi media nəhəngləri peyk xidmətləri üzrə biznes tərəfdaş olaraq "Azərkosmos"u seçir.

"Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək. Qeyd edək ki, "Azerspace-2" peyki hələ orbitə buraxılmamış onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" şirkətinə satılıb. Bu müqavilə üzrə ödənişlər layihə dəyəri və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edəcək. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır.

*"Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk"*

## KOSMİK SƏNAYEDƏ ƏLDƏ EDİLƏN UĞURLAR İQTİSADİYYATIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINI STİMULLAŞDIRIR

Ölkəmizin kosmik sənayedə əldə edilən uğurları iqtisadiyyatın qeyri-neft sektorunun inkişafının stimullaşdırılması baxımından da böyük önəm daşıyır. Orbitə çıxarılan peyklərin kommersiya xarakterli fəaliyyətindən ölkəmiz böyük həcmlərdə valyuta qazanır. Ümumiyyətlə isə "Azerspace-1" peykinin 15 il istismar müddəti ərzində 650 milyon dollar gəlir əldə ediləcəyi gözlənilir. Dəyəri 190 milyon ABŞ dollarına bərabər olan "Azerspace-2" peykinin ölkə iqtisadiyyatına gətirəcəyi gəlir isə 400 milyon ABŞ dolları həcmində proqnozlaşdırılır.

Ölkəmizin kosmik sənayedə əldə etdiyi uğurlar qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərir. Bu amilə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: **"Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır".**

Azərbaycanın orbitə çıxardığı peyklərin ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına müsbət təsirindən söhbət açarkən "Azersky" peykinin rolunu da xüsusi vurğulamaq lazımdır. Artıq bir neçə ildir ki, uğurla istismar olunan "Azersky" müşahidə peyki dünyanın istənilən nöqtəsində baş verən hadisələri müntəzəm izləməyə imkan yaradır. Bütövlükdə, peyklərin orbitə çıxarılması infrastruktur layihələrinin icrası və mövcud infrastrukturun qorunması baxımından böyük əhəmiyyətə malikdir. "Azersky"ın bu kimi üstünlüklərini diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb: **"Eyni zamanda, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk".**

Deyilənlərdən də göründüyü kimi, Azərbaycanın özünün kosmik sənayesini inkişaf etdirməsi ölkəmizin qarşısında yeni, daha geniş imkanlar açır. Azərbaycan güclü dövlətdir və qarşıya qoyduğu bütün məqsədlərə çatır. Sentyabrın 26-da "Azerspace-2" telekommunikasiya peykinin orbitə çıxarılması müstəqil respublikamızın növbəti tarixi qələbəsidir.

**Mübariz ABDULLAYEV**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfər edib

## Roma Papası Fransisk ilə görüş





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfəri çərçivəsində sentyabrın 26-da Roma Papası Fransisk ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, əməkdaşlığımızın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulanıb. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyi qeyd edilib.



Söhbət zamanı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, Fondun xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər yüksək qiymətləndirilib.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Roma Papasına çatdırıb.

Papa Fransisk Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

## Romada Müqəddəs Sebastian katakombalarının bərpadan sonra açılışı olub

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib*





Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının sentyabrın 26-da açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib.

Kardinal Can-Franko Ravazi Birinci vitse-prezident Mehriban Əliyevanı qarşılayıb.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı olub.

Birinci vitse-prezident Mehriban Əliyeva və Kardinal Can-Franko Ravazi rəmzi açılışı bildirən lenti kəsiblər.

Burada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2016-cı ildə başlanılıb. Görülən işlərə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq ifadə olunub. Bildirilib ki, bərpa işləri mükəmməl həyata keçirilib. Ümumilikdə, katakombalarda 8 minə yaxın sərdaba yerləşir. Katakombaların zəngin tarixi var. Onlar bütün xristian dünyası üçün mühüm əhəmiyyət daşıyır. Katakombalar təbii və ya süni yeraltı məntəqələrdir. Onlar çox dar dəhlizlərdən ibarət olur. Əvvəllər Romada müqəddəs Sebastian kilsəsinin altında yerləşən dəfn qalereyalarına katakombalar deyilirdi. Bu katakombalar 1578-ci ildə aşkarlanıb. Buradakı bəzi abidələrin yaşı III əsrə gedib çıxır.

Qeyd edək ki, bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

## İtaliya Prezidenti tərəfindən Azərbaycanın Birinci vitse-prezidentinin şərəfinə rəsmi nahar verilib





Sentyabrın 26-da İtaliya Respublikasının Prezidenti Sercio Mattarella tərəfindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident Sercio Mattarella Birinci vitse-prezident Mehriban Əliyevanı qarşılayıb.

Azərbaycanın nümayəndə heyəti Prezident Sercio Mattarellaya, İtaliyanın dövlət və hökumət rəsmiləri Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim olunub.

Sonra birgə foto çəkdirilib.

Daha sonra İtaliya Prezidenti tərəfindən Azərbaycanın Birinci vitse-prezidentinin şərəfinə rəsmi nahar verilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 26-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycanın Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü rolu oynadığı bildirilib, ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələri, multikultural mühit yüksək qiymətləndirilib.



Söhbət zamanı Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmlənməsinə verdiyi töhfələr, bununla bağlı ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, xüsusilə də Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər, reallaşdırdığı mühüm layihələr qeyd edilib.

## Səfər başa çatıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliya Respublikasına rəsmi səfəri sentyabrın 26-da başa çatıb.

# Azərbaycan parlamentinin 100 ili: müstəqil dövlətçiliyin əvəzedilməz dayağı




Milli Məclis özünün yubileyini qeyd etdi. Azərbaycan müsəlman Şərqində ilk dəfə olaraq bir əsr bundan öncə demokratik parlament yarada bildi. Qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, parlament bir sıra demokratik qanunlar qəbul edə bildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqil dövlətin atributlarını məhz həmin dövrdəki parlament qəbul edib. Azərbaycanın gerbi, bayrağı, bayraqdakı rənglərin mənası 100 il bundan öncənin bizə verilən qiymətli əmanətləridir. Çox yaxşı ki, indi müstəqil dövlətçiliyimiz əmin əllərdədir. Ölkə rəhbərliyi öz səmərəli və milli maraqlara tam uyğun olan siyasəti ilə Azərbaycanın suverenliyini qoruyur və inkişaf etdirir. Milli Məclisin 100 illik yubileyinə həsr edilmiş təntənəli iclasda Prezident İlham Əliyevin söylədiyi nitq olduqca dərin və əhatəli olub. Yuxarıda vurğulanan məqamlar kontekstində həmin nitqin bir sıra məqamları üzərində geniş dayanmağı lazım bildik.

## MÖHTƏŞƏM QANUNVERİCİLİK TARİXİ: ULU ÖNDƏRİN UZAQGÖRƏNLİYİ

Parlament hər bir demokratik müstəqil dövlətin simasıdır. Qanunvericilik prosesi müstəqil dövlətçilik aspektində son dərəcə böyük əhəmiyyət kəsb edir. İndi beynəlxalq aləmdə parlamentlərin fəaliyyəti diqqət mərkəzindədir. Azərbaycan parlamentinin 100 illiyi tamam olur. Keçən əsrin əvvəllərində müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda yarandı. Onun parlamenti də həmin dövrdə formalaşdırıldı. Bu parlament qısa müddət ərzində demokratiklik baxımından çox mühüm qanunlar qəbul etdi. Azərbaycanlılar haqlı olaraq Şərqdə ilk demokratik parlament yaratmaları ilə fəxr edə bilərlər.

Azərbaycan parlamentinin tarixi rolunun başqa vacib bir aspekti bütövlükdə Cənubi Qafqaz regionuna qanun qəbulunda demokratik ruh gətirməkdən ibarətdir. Yəni bu parlamentin formalaşması yalnız Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Geniş geosiyasi məkanda demokratik qaydalara uyğun işləyə bilən parlamentin yaradılması baxımından əhəmiyyətli bir təcrübə idi.

Azərbaycan parlamenti milli demokratik və hüquqi dövlət quruculuğu prosesində aktiv iştirak edir. Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibəti ilə Milli Məclisdə keçirilən iclasda bununla bağlı ifadə edib: **"Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilmişdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir"** (bax: Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib / AZƏRTAC, 21 sentyabr 2018).

Milli Məclis ölkənin müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynayır. Məsələ ondan ibarətdir ki, müasir tarixi mərhələdə hüquqi dövlətin qurulması birinci dərəcəli vəzifədir. Yalnız hüququn aliliyinin təmin olunduğu yerdə demokratiyadan danışmaq olar. Ancaq hər bir ölkənin özünəməxsus təkamül tarixi vardır. Qanunvericilikdə bu məqam mütləq nəzərə alınmalıdır. Əks halda, ən demokratik qanun belə yerli şəraitlə ziddiyyət təşkil edirsə, cəmiyyətdə müxtəlif fəsadlara yol aça bilər.

Azərbaycan parlamenti məhz bu məqama xüsusi diqqət yetirərək fəaliyyət göstərir. Şübhəsiz ki, parlamentin işinin düzgün qurulmasında Ulu öndər Heydər Əliyevin əvəzedilməz xidmətləri olub. Prezident İlham Əliyev məhz bu məqamı nəzərə alaraq, nitqində ayrıca vurğulayıb: **"Bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi"** (bax: əvvəlki mənbəyə).

Heydər Əliyev müasir tələblərə cavab verəcək qanunvericilik bazasının yaradılmasını parlamentarlar qarşısında mühüm bir vəzifə kimi qoymuşdu. Ulu öndər çox gözəl bilirdi ki, hüquqi dövlət zəruridir, ölkə ancaq qanunlarla idarə olunmalıdır. Təcrübə Ümummilli liderin tam haqlı olduğunu göstərdi. Azərbaycan məhz qəbul etdiyi qanunlara əsaslanaraq daxili və xarici siyasət kursunu çağdaş dövrün tələbləri səviyyəsində qura bildi və dövlətçiliyi daimi inkişaf etdirir.

## 100-CÜ İL: UĞURLAR DAVAM EDİR...

Onu da vurğulayaq ki, bu gün Azərbaycan parlamentində müşahidə edilən mövqe birliyinin yaranmasında Heydər Əliyevin və sonrakı mərhələdə Prezident İlham Əliyevin böyük rolu vardır. Keçən əsrin 90-cı illərinin əvvəllərində Milli Məclisdə tez-tez qanunvericilərə yaraşmayan hərəkətlər olurdu, deputatların demokratik müzakirə səviyyəsi lazımi dərəcədə deyildi. Ancaq Heydər Əliyev parlamentə Sədr seçiləndən sonra vəziyyət kəskin surətdə dəyişdi. Qarşılıqlı hörmətə əsaslanan müzakirələr üstünlük təşkil etdi. İndi Milli Məclisdə müxtəlif partiyaların təmsilçiləri fəaliyyət göstərirlər. Lakin onlar milli məsələlərdə eyni mövqedən çıxış edirlər. Bu birliyi Heydər Əliyevin əsasını qoyduğu siyasət yaratdı.

Prezident İlham Əliyevin aşağıdakı fikirləri bu baxımdan çox maraqlı və dolğundur: **"Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır"** (bax: əvvəlki mənbəyə).

Bəli, parlament diplomatiyasının bugünkü yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin də böyük rolu danılmazdır. İlham Əliyev AŞPA-da Azərbaycan nümayəndə heyətinin başçısı kimi olduqca böyük fəallıq göstərdi. Qısa müddətdə Azərbaycanın maraqlarına cavab verən mühüm sənədlər qəbul edildi. Bu aktivlik, ümumiyyətlə, azərbaycanlı deputatlara nümunə oldu və onlar indi olduqca fəaldırlar. Cənab İlham Əliyevin də vurğuladığı kimi, deputatlarımız Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə fəal müdafiə edirlər.

Prezident İlham Əliyev fikrini inkişaf etdirərək deyib ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlarda fəal iş aparırlar. Bunu dövlət başçısı da, xalq da yüksək qiymətləndirir. Həmin sırada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması xüsusi yer tutur. Bununla yanaşı, **"Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın"** (bax: əvvəlki mənbəyə).

Təbii ki, Azərbaycan deputatlarının fəaliyyətində Dağlıq Qarabağ münaqişəsi, ermənilərin tarixən azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasəti haqqında həqiqətləri dünya birliyinə çatdırmaq böyük yer tutur. Bu istiqamətdə parlamentimiz böyük uğurlara nail olub. Bu proses davam edəcək. Dövlət başçısı inamını ifadə edib ki, **"Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə öz müsbət töhfəsini verəcəkdir"** (bax: əvvəlki mənbəyə).

Bütün bu məqamlar prizmasından Azərbaycan parlamentinin keçdiyi 100 illik yola nəzər salanda, ciddi uğurlara imza atıldığına bir daha əmin oluruq. 1920-ci ildən 1991-ci ilə qədər müstəqilliyimizi itirməyimizə baxmayaraq, Azərbaycanda yüksək parlamentar fəaliyyət mədəniyyəti formalaşıb. İndi müstəqil dövlətimizin parlamenti bütün gücü ilə xalqa və dövlətçiliyə xidmət edir. Əlbəttə, bu, tarixi nailiyyətdir, qiymətli sərvətdir. Ölkə rəhbərliyi daim Milli Məclisə böyük qayğı ilə yanaşıb, onun səmərəli işləməsi və milli maraqlara cavab verən qanunlar hazırlaması üçün ciddi addımlar atıb. Bu istiqamətdə ölkə rəhbərliyinin bundan sonra da qətiyyətli addımlar atacağına şübhə yoxdur.

Azərbaycan xalqı bu gün öz parlamentinin 100 illiyini qeyd edir. Onun bəhrələrini əyani surətdə görür. Müstəqil dövlətçilik yolunda parlamentsiz irəliləməyin mümkün olmadığına hər kəs inanır. Bu səbəbdən heç kəsin şübhəsi olmasın ki, müstəqil parlamentin dayağı Azərbaycan xalqıdır! Cənab Prezidentin liderliyi ilə xalq və hakimiyyət öz parlamentini həmişə qoruyacaq və inkişaf etdirəcək.

**Newtimes.az**

# Yaddaşlarda yaşayanlar: Murtuz Ələsgərov Ulu öndərin yaxın silahdaşlarından biri, görkəmli dövlət xadimi idi



Ulu öndər Heydər Əliyevin ən yaxın silahdaşlarından, "91-lər" hərəkatının fəallarından olan Milli Məclisin sabiq sədri, görkəmli dövlət xadimi Murtuz Ələsgərovun anadan olmasından 90 il keçir. AZƏRTAC parlament tariximizdə özünəməxsus yer tutmuş Murtuz Ələsgərovun həyat yoluna və çoxşaxəli fəaliyyətinə nəzər salıb.



Murtuz Ələsgərov müstəqil Azərbaycanın dövlətçilik tarixində böyük xidmətləri olan ictimai-siyasi xadim idi. O, milli parlamentin formalaşmasında əvəzsiz rol oynayıb. Eyni zamanda, hüquq elmləri üzrə zəngin bilik və təcrübəyə malik alim, ləyaqətli ziyalı kimi xatırlanır. Azərbaycan dövlətçiliyinin qurulmasına və inkişafına dəyərli töhfələr vermiş görkəmli şəxsiyyətlər arasında Murtuz Ələsgərovun özünəməxsus yeri var. Təsadüfi deyil ki, bu gün onun adı Ulu öndər Heydər Əliyevin ən yaxın silahdaşlarından biri kimi hörmət və ehtiramla çəkilir.



## SİLAHDAŞLIQ MİSSİYASI

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə gərgin ictimai-siyasi proseslər cərəyan edirdi. Ovaxtkı ölkə rəhbərliyinin səriştəsizliyi, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin başlaması, xarici müdaxilələr respublikanı, sözün əsl mənasında, böyük fəlakətlərlə üz-üzə qoymuşdu. Belə ağır bir dövrdə Azərbaycan xalqı, ölkənin qabaqcıl ziyalıları müdriklik göstərərək dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdilər. Əlbəttə, bu, həmin dövr üçün olduqca təhlükəli addım idi. Çünki Heydər Əliyev və Onun yaxın tərəfdarları daim təzyiqlərlə üzləşir, təqiblərə məruz qalırdılar. Azərbaycan xalqına düşmən olan bəzi qüvvələr də Heydər Əliyev şəxsiyyətindən açıq-aşkar çəkinir, hər vəchlə Ulu öndərin yenidən hakimiyyətə gəlməsinin qarşısını almağa çalışırdılar. Amma xalqın güclü iradəsi bütün təhdidlərin qarşısını aldı və Heydər Əliyev Azərbaycanda hakimiyyətə dəvət olundu. Murtuz Ələsgərov həmin dövrdə və ondan sonrakı illərdə Ümummilli lider Heydər Əliyevin sadiq silahdaşlarından birinə çevrildi.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının müəlliflərindən biri olan Murtuz Ələsgərov hər zaman əqidəsinə sadiqliyi ilə seçilən ziyalı idi. O, xalqımızın çətin anlarında, taleyüklü məsələlərin həllində dərin zəkasını, bilik və bacarığını ortaya qoyub, milli mənafeyin müdafiəsinə qalxıb. 1990-cı illərin əvvəllərində Azərbaycanın ağır günlərində ölkəmizin tanınmış vətənpərvər ziyalıları dahi siyasətçi Heydər Əliyevin müdrikliyinə, uzaqgörənliyinə, vətənpərvərliyinə və qətiyyətinə güvənərək, Ondan xalqa yol göstərməsini, xilaskarlıq missiyasını yerinə yetirməsini xahiş edib, bununla bağlı müraciət ünvanladılar. Hər kəs inanırdı ki, xalqımızı tarixin bu çətin sınağından çıxara biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir. Ulu öndərə ünvanlanan müraciətə imza atanlar arasında Murtuz Ələsgərovun adı birincilər sırasında idi. Hələ Heydər Əliyev Naxçıvanda olarkən dəfələrlə Onun görüşünə getmiş, taleyüklü məsələlərlə bağlı fikir mübadiləsi aparmışdı.



Beləliklə, o dövrün ağır imtahanlarından şərəflə çıxan Murtuz Ələsgərov Ulu öndərin sədaqətli silahdaşlarından biri olaraq ömrünün sonunadək bu missiyasını ləyaqətlə yerinə yetirdi.

## BEYNƏLXALQ HÜQUQ SAHƏSİNDƏ İLK AZƏRBAYCANLI ALİM

Murtuz Ələsgərov hələ kiçik yaşlarından möhkəm iradəli, vətənpərvər ruhlu, xalqına və vətəninə bağlı, ədalətli insan kimi formalaşır, qanunların keşiyində durmaq, insanların hüquqlarını müdafiə etmək arzusu ilə yaşayırdı. Bu arzu onu 1945-ci ildə respublikanın ən mötəbər ali təhsil ocağı olan Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə gətirib çıxardı. 1950-ci ildə bu fakültəni fərqlənmə diplomu ilə bitirən Murtuz Ələsgərov hüquq elmini daha dərindən mənimsəmək məqsədilə Moskvaya gedir. SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun aspiranturasına qəbul olunaraq beynəlxalq hüquq sahəsində elmi araşdırmalara başlayır. Vətənə qayıdaraq Azərbaycan Dövlət Universitetində əvvəlcə Dövlət hüququ kafedrasında baş müəllim və dosent kimi çalışır. Sonradan universitetin Beynəlxalq hüquq kafedrasının müdiri vəzifəsinə seçilir və 8 il bu kafedraya rəhbərlik edir.

Beynəlxalq hüquq sahəsində ilk azərbaycanlı elmlər namizədi olan Murtuz Ələsgərov 1968-ci ildə Azərbaycan Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edib və hüquq elmləri doktoru elmi dərəcəsi alıb. 1969-cu ildə isə ona beynəlxalq hüquq ixtisası üzrə professor elmi adı verilib.

O, beynəlxalq hüquq sahəsində dünya miqyasında da tanınmış alimlərdən biri idi. Bu sahədə biliklərini daim genişləndirir, beynəlxalq konfranslarda, simpoziumlarda dərin məzmunlu məruzələrlə çıxış edirdi.

Murtuz müəllimin onlarla dərslik və monoqrafiyası, 200-dən çox elmi əsəri çap olunub, onun rəhbərliyi ilə iyirmi nəfər namizədlik dissertasiyası müdafiə edib. Onların arasında Çin, Vyetnam, İraq, İran, Banqladeş və digər Afrika ölkələrinin vətəndaşları da var. Həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olan Murtuz Ələsgərov 1993-1996-cı illərdə bu ali təhsil ocağının rektoru işləyib.

Ulu öndər Heydər Əliyev Murtuz Ələsgərova bir peşəkar hüquqşünas kimi hər zaman böyük etimad göstərirdi. Təsadüfi deyildi ki, 1995-ci ildə Prezident Heydər Əliyevin Sədrliyi ilə müasir dövrün tələblərinə uyğun, hüquqi demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunu təmin edən Konstitusiya layihəsinin hazırlanması məqsədilə yaradılan Komissiyanın üzvlərindən biri də Murtuz Ələsgərov idi.

## GÖRKƏMLİ DÖVLƏT XADİMİ

Hər zaman öz işgüzarlığı və prinsipiallığı ilə seçilən Murtuz Ələsgərov elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, ölkəmizdə baş verən ictimai-siyasi proseslərdə də fəallıq nümayiş etdirir, insanları narahat edən məsələlərin ədalətli həllinə çalışırdı. O, 1990-cı illərin əvvəllərində Ulu öndərin rəhbərliyi ilə yaradılan, bu gün regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının (YAP) formalaşdırılmasında və təşkilatlanmasında yaxından iştirak edib və uzun müddət partiyanın sədr müavini kimi fəaliyyət göstərib. Heydər Əliyev ideyalarının reallığa çevrilməsi üçün var qüvvəsini əsirgəməyib.

Öz elmi, ictimai-siyasi fəaliyyəti ilə insanlar arasında nüfuz qazanmış, fəal ziyalı mövqeyinə malik professor Murtuz Ələsgərov 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. Parlament fəaliyyəti dövründə ölkənin qanunvericilik bazasının yaradılmasında və möhkəmləndirilməsində yaxından iştirak edib. 1996-cı il oktyabrın 16-da Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilib və on ilə yaxın müddətdə bu vəzifəni layiqincə yerinə yetirib. O, respublikamızda qanunvericilik sisteminin konstitusion prinsiplər əsasında təkmilləşdirilməsinə önəmli töhfələr verib, həmçinin hüquqi dövlət quruculuğu sahəsində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində mühüm xidmətlər göstərib.

Murtuz Ələsgərov həm elmi, həm də ictimai-siyasi fəaliyyətinə görə yüksək dövlət mükafatlarına layiq görülüb. "İstiqlal" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", Müstəqil Dövlətlər Birliyinin "Sodrujestvo" ordeni, Rusiya Federasiyasının "Dostluq" ordeni ilə, digər fəxri adlar və mükafatlarla təltif edilib.

Xalqına sədaqətlə xidmət etmiş görkəmli ictimai-siyasi xadim, Azərbaycan elminin və təhsilinin inkişafına böyük töhfələr vermiş alim-pedaqoq Murtuz Ələsgərovun əziz xatirəsi onu tanıyanların xatirəsində yaşayır və yaşayacaq.

# "Azerspace-2" peykinin orbital mövqeyinə çatması və testlərdən keçməsi üçün təxminən 5 ay vaxt lazımdır

"Azerspace-2" peykinin orbital mövqeyinə çatması və testlərdən keçməsi üçün təxminən 5 ay vaxt lazımdır.

Bunu AZƏRTAC-a müsahibəsində "Azərkosmos" ASC-nin sədr müavini Rövşən Rüstəmov deyib.

Rövşən Rüstəmov bildirib ki, əsas məqsəd "Azərkosmos"un təqdim etdiyi peyk xidmətlərinin çeşidinin və əhatə dairəsinin daha da genişləndirilməsi, ən əsası "Azerspace-1" peykinin orbitdəki ehtiyatının yaradılmasından ibarətdir: **"Bilirsiniz ki, "Azerspace-1" peyki 2013-cü ildən fəaliyyət göstərir. Bu günədək ehtiyat peykin olmaması "Azərkosmos"un beynəlxalq tenderlərdə iştirakını məhdudlaşdırırdı. Hər iki telekommunikasiya peykimizin birgə gücü onun peyk texnologiyaları bazarındakı payını və mövqeyini daha da möhkəmləndirəcək".**



R.Rüstəmov onu da diqqətə çatdırıb ki, "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək: **"Azerspace-2" peykinin orbital mövqeyinə çatması və testlərdən keçməsi üçün təxminən 5 ay vaxt lazımdır. Bu müddətdən sonra peykin idarəçiliyi Fransanın "Arianespace" şirkəti tərəfindən "Azərkosmos" ASC-yə təhvil veriləcək. Bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır olacaq".**

Dəyəri 190 milyon ABŞ dolları olan "Azerspace-2" peykinin ölkə iqtisadiyyatına 400 milyon ABŞ dolları gəlir gətirəcəyi gözlənilir.

# Baş nazir Novruz Məmmədov "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 26-da Bakı Ekspo Mərkəzində "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Baş nazirə sərgi barədə məlumat verilib.

Bildirilib ki, "ADEX-2018" sərgisində 29 ölkədən 224 şirkət və rəsmi nümayəndə heyətləri iştirak edir. Sərginin iştirakçıları olan bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyalarının sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə (41şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) sərginin fəal iştirakçılarıdır.



Burada peşəkarlar ölkənin müdafiə sənayesinin yenilikləri, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcud və inkişaf edən potensialı ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Bu il Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı, "Vitta" elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgidə ilk dəfə iştirak edir.

Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nazirliyin müəssisələrində yaradılan və istehsal olunan ən son silah və hərbi texnikalar nümayiş etdirilir. Burada iştirakçılar və ziyarətçilər Azərbaycan müdafiə sənayesinin yenilikləri, inkişaf etməkdə olan potensialı ilə yaxından tanış ola bilirlər.

Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regionda mühüm strateji əhəmiyyətini bir daha təsdiqləyir.

Baş nazir Novruz Məmmədov sərginin pavilyonları ilə tanış olub.

# Yaxın zamanlarda dərman vasitələrinin ölkəmizə gətirilməsi qaydaları sadələşdiriləcək



Sentyabrın 26-da Nazirlər Kabinetində dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi məsələləri ilə bağlı iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

İclasda Əli Əhmədov bildirib ki, Azərbaycanın dərman bazarının bol çeşidli preparatlarla zənginləşməsi, ölkə vətəndaşlarının keyfiyyətli dərmanlarla təmin olunması, dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti qurumlar bir sıra yeni təkliflərlə çıxış ediblər. **"Ölkəyə idxal olunan dərman vasitələrinin ilk olaraq qeydiyyatı və gömrük rəsmiləşdirilməsi şərtləri sadələşdirilməlidir"**, - deyən Baş nazirin müavini bunun üçün dünya təcrübəsinin öyrənilməsinin və tətbiqinin vacib olduğunu vurğulayıb. Əli Əhmədov Azərbaycanda hər növdən olan dərman vasitələrinin əlçatanlığının səhiyyəmizin inkişafına təkan verəcəyini qeyd edib. **"Hesab edirəm ki, dərman bazarında əlçatanlıq təmin olunmalıdır. Digər tərəfdən, dərman preparatlarının idxalı əsasən Dünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi dərmanlara istinad edilməsi meyarlarına əsaslanmalı, bütün idxal proseduru ciddi şəkildə sadələşdirilməlidir. Bunun üçün də Dövlət Gömrük Komitəsi dünya təcrübəsinə əsaslanaraq yeni təkliflərlə çıxış etməlidir. Eyni zamanda, dərmanların keyfiyyətinə nəzarət Səhiyyə Nazirliyi tərəfindən gücləndirilməlidir. Lazım gəlsə, normativ hüquqi aktlarda dəyişiklik edilə bilər. Əminəm ki, bu təkliflərin əsasında qanunvericilikdə edilən dəyişikliklər vətəndaşlarımızın həm rahatlığına, həm də sağlamlıqlarının qorunmasına xidmət edəcək"**, - deyə Əli Əhmədov vurğulayıb.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, səhiyyə naziri Oqtay Şirəliyev və digər aidiyyəti qurumların rəhbərləri bu sahədə dünya təcrübəsindən yararlanaraq tez bir zamanda yeni təkliflərlə çıxış edəcəklərini bildiriblər.

İclasda dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının qısa vaxt ərzində əsaslı şəkildə sadələşdirilməsi barədə tapşırıq verilib.

# "KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması" mövzusunda təlim keçirilib



Sentyabrın 26-da "KİV nümayəndələrinin icbari tibbi sığorta sahəsində məlumatlılığının artırılması" mövzusunda təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, təlimdə səhiyyə mütəxəssisləri, həkimlər, pilot layihənin həyata keçirildiyi rayonların və kütləvi-informasiya vasitələrinin 35 nümayəndəsi iştirak edib.

Təlimdə İcbari Tibbi Sığorta Agentliyi Monitorinq, təhlil və aktuari departamentinin rəhbəri Araz Nəsirov "Əhalinin sağlamlığının qorunmasında icbari tibbi sığortanın rolu" və Tibbi sığorta departamentinin rəhbəri Vüqar Qurbanov "İcbarı tibbi sığorta sistemi, təminatlar və istisnalar zərfləri" mövzularında məruzə ediblər. Məruzəçilər qeyd ediblər ki, pilot layihənin həyata keçirildiyi müddətdə stasionara gəlişlərin sayı 28, cərrahiyyə əməliyyatlarının sayı 50 faiz artıb. 375 xəstə ürək-damar problemləri ilə əlaqədar əməliyyat olunub. Evə yazılan xəstələrin çarpayıda keçirdiyi gecələrin sayı 11,3-dən 5,3-ə enib. Bildirilib ki, icbari tibbi sığortanın tətbiqi zamanı ilkin səhiyyə xidməti sahəsində 18, təcili və təxirəsalınmaz tibbi yardım sahəsində 6, ambulator sahədə 480, stasionar sahədə 677, laborator sahədə 459, fizioterapiya sahəsində 23, həyati vacib dərəcədə yüksək olan sahədə 166 adda xidmət göstəriləcəyi nəzərdə tutulub.

Agentliyin Səhiyyə işinin təşkili departamentinin səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova "İcbari tibbi sığorta çərçivəsində ailə həkimi institutunun inkişafının yeni mərhələsi", tibb müəssisələri və regionlarla iş şöbəsinin müdiri Sadıq Mədətov "Pilot ərazilərdəki tibb müəssisələrində çalışan tibb işçilərinin icbari tibbi sığorta sisteminə münasibəti", Hüquq departamentinin rəhbəri Aysel İbayeva "Azərbaycanda icbari tibbi sığorta sisteminin yaradılmasına dəstək göstərilməsində Avropa Birliyinin Tvininq layihəsi və normativ tənzimlənmə sahəsində görülmüş işlər" mövzularında çıxış ediblər.

Yevlax rayon mərkəzi xəstəxanasının həkim-oftalmoloqu Güləndam İsgəndərova və Mingəçevir şəhər mərkəzi xəstəxanasının həkim-nefroloqu Allahverdi Alıyev məruzələrində 2016-cı ildən pilot layihə kimi hər iki rayonda tətbiq edilən icbari tibbi sığortanın üstünlükləri barədə məlumat veriblər. Onlar xidmətin səviyyəsinin yüksəldiyini göstərməklə bərabər belə bir faktı da xüsusi vurğulayıblar ki, pilot ərazilərdə əməkhaqqı fondu 1,6, həkimlərin maaşı 3 dəfə, orta tibb işçilərinin əməkhaqqı isə 60 faiz artıb.

Təlimdə Avropa İttifaqının "Azərbaycanda İcbari tibbi sığorta sisteminin tətbiqinə dəstək" tvinninq layihəsinin rezident müşaviri Qediminas Çerniauskas "Avropa ölkələrində icbari tibbi sığorta sistemi" mövzusunda məruzəsində bu sahədə bir sıra Avropa ölkələri ilə respublikamız arasında müqayisəli təhlillər aparıb, mətbuat işçilərinin ictimaiyyəti məlumatlandırmaq sahəsində qarşısında duran vəzifələrdən danışıb.

Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova "Əhalinin sağlamlığının qorunmasında icbari tibbi sığortanın rolu" mövzusunda məqalə, "İcbari tibbi sığorta həyatımda nəyi dəyişəcək?" və ya "İcbari tibbi sığorta nədir" mövzularında sosial videoçarx müsabiqələrinin şərtləri barədə məlumat verib.

Ailə həkimi və icbari tibbi sığortanın üstünlüklərini nümayiş etdirən videoçarxlar nümayiş olunub və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Təlimin sonunda tədbirdə iştirak edən kütləvi-informasiya vasitələrinin nümayəndələrinə sertifikatlar təqdim edilib.

# Dövlət Komitəsinin sədri Gürcüstanın Azərbaycandakı səfiri ilə görüşüb



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 26-da Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

Komitənin mətbuat xidmətindən verilən məlumata görə, qonağı ölkəmizə fövqəladə və səlahiyyətli səfir təyin edilməsi münasibətilə təbrik edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq əlaqələrinin tarixi köklərə malik olduğunu və bu münasibətlərin hazırda da uğurla davam etdiyini vurğulayıb.

Dövlət Komitəsinin sədri daha sonra qonağı ölkəmizdəki dövlət-din münasibətləri, tolerantlıq mühiti və Dövlət Komitəsinin fəaliyyəti barədə məlumatlandırıb. Azərbaycanda müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, dövlət tərəfindən Azərbaycanda yaşayan müxtəlif dini konfessiyaların nümayəndələrinə daima xüsusi diqqət göstərildiyini, onların ibadəti üçün hər bir şəraitin yaradıldığını diqqətə çatdırıb. Azərbaycanın dini tolerantlığı ilə seçildiyini vurğulayan DQİDK sədri Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Azərbaycanda onlarla yeni dini ibadətgahın tikildiyini və ya əsaslı təmir olunduğunu söyləyən Mübariz Qurbanlı ölkə ərazisində 2250 məscidin mövcud olduğunu qeyd edib. Əlavə edib ki, Azərbaycanda 2-si gürcü pravoslav xristian dini icması olmaqla 31 qeyri-islam təmayüllü dini icma fəaliyyət göstərir. Bildirib ki, dini icmaların fəaliyyətinin yaxşılaşdırılması, dini maarifçilik işinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən maliyyə yardımı ayrılan icmalar içərisində gürcü pravoslav dini icmaları da yer alır.

Gürcüstanla tarixən yaxın dostluq əlaqələrinə malik olan və dünyada tolerantlıq modeli kimi tanınan Azərbaycanda səfir kimi fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edən Zurab Pataradze ölkələrimiz arasında bütün sahələrdə, eləcə də din sahəsində mövcud əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsi üçün dərin səy göstərəcəyini bildirib.

Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin aparıldığı görüşün sonunda Mübariz Qurbanlı səfir Zurab Pataradzeyə diplomatik fəaliyyətində uğurlar arzulayıb, ona Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və erməni vandalizmindən bəhs edən kitabları hədiyyə edib.

# KİV nümayəndələrinin iştirak etdiyi "Gömrük islahatları və modernləşdirmə" mövzusunda təlim davam edir



Dövlət Gömrük Komitəsinin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün təşkil etdiyi "Gömrük islahatları və modernləşdirmə" mövzusunda təlim davam edir.

AZƏRTAC xəbər verir ki, Qusar rayonunda keçirilən təlimdə bu gün Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin əməkdaşları - Gömrük prosedurlarının idarə olunması şöbəsinin rəisi Elçin Rüstəmov, Tranzit əməliyyatları şöbəsinin rəisi Fərid Vəliyev və Xarici ticarət iştirakçıları ilə iş şöbəsinin rəisi Mahmud Nuriyev təqdimatlarla çıxış ediblər.

Təlim iştirakçıları "Malların gömrük ərazisinə gətirilməsi və aparılması; nəqliyyat vasitələrinin və şəxslərin gömrük ərazisinə daxil olması və bu ərazidən yola düşməsi", "Yaşıl dəhliz" və digər buraxılış sistemləri", "Ticarətin asanlaşdırılması üzrə gömrük nəzarətində yeniliklər", "Sərnişinlər üçün nəzərdə tutulan "Yaşıl dəhliz" və "Qırmızı dəhliz" buraxılış sistemləri", "Gömrük orqanlarının başqa şəxslərlə münasibətləri; gömrük təmsilçiliyi, gömrük daşıyıcısı, səlahiyyətli iqtisadi operator institutu" mövzularında məlumatlandırılıb.

Günün ikinci yarısında isə təlim iştirakçıları Dövlət Gömrük Komitəsi Şimal Ərazi Baş Gömrük İdarəsinin Rusiya Federasiyası ilə sərhəddə yerləşən "Samur" gömrük postuna səfəri təşkil olunub və media nümayəndələrinə əldə etdikləri bilikləri praktikada tətbiq etmək imkanı yaradılıb. Media nümayəndələrinə gömrük postunun iş prinsipi, buraxılış qabiliyyəti barədə məlumat verildikdən sonra onlar idxal-ixrac sərnişin və yük nəzarət xətlərində həyata keçirilən proseslər barədə məlumatlandırılıb, gömrük nəzarətinin təşkili, nəqliyyat vasitələrinin qeydiyyatı və yoxlanılması prosesində iştirak ediblər.

Eyni zamanda, media nümayəndələri Nazirlər Kabinetinin 305 saylı qərarının icrasının tətbiqini müşahidə ediblər.

Xatırladaq ki, sentyabrın 25-də başlayan tədbir ayın 29-dək davam edəcək.

# YAP Səbail rayon təşkilatı İdarə Heyətinin iclası keçirilib



Sentyabrın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının İdarə Heyətinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 27-ci və Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü ilə əlaqədar YAP Səbail rayon təşkilatının qarşısında duran vəzifələr müzakirə edilib. Həmçinin ərazi ilk partiya təşkilatlarında görülmüş işlər haqqında məlumatların dinlənilməsi və YAP Səbail rayon təşkilatının Gənclər Birliyinin və Qadınlar Şurasının hesabat-seçki yığıncaqlarının keçirilməsi ilə əlaqədar hazırlıq işləri, o cümlədən cari məsələlərə baxılıb.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək gündəlikdəki məsələləri diqqətə çatdırıb. Ş.Hacıyev deyib ki, bu gün çox mürəkkəb və ziddiyyətli bir dünyada yaşayırıq. Yaxın coğrafiyada baş verən müharibələr, qanlı toqquşmalar, miqrantlarla bağlı problemlər bütün dünyanı, xüsusən də Avropanı çalxalayır.

**"Amma bütün bunlara baxmayaraq, Azərbaycan həmişə olduğu kimi sabitlik adasıdır, öz inkişaf yolu ilə gedir. Ölkəmiz həm iqtisadi, həm sosial cəhətdən inkişaf edir. Azərbaycanın çoxşaxəli beynəlxalq münasibətləri uğurla genişləndirilir. Biz bütün ölkələrlə əməkdaşlıq edirik, onların sayı gündən-günə artır"**, - deyə Ş.Hacıyev əlavə edib.

Milli Məclisin deputatı vurğulayıb ki, Azərbaycanın ticarət əlaqələrinin genişlənməsi, gəlirlərinin çoxalması hərbi gücümüzün artmasına şərait yaradıb ki, bu da ən böyük problemimiz olan Ermənistan-Azərbaycan Dağıq Qarabağ münaqişəsinin həlli istiqamətində vacib amildir.

Ş.Hacıyev qeyd edib ki, Azərbaycan xalqının tarixində 15 sentyabr günü olduqca əlamətdar bir gündür. 1918-ci il sentyabrın 15-də Bakı şəhəri Qafqaz İslam Ordusunun köməyi ilə erməni-bolşevik quldur dəstələrinin əsarətindən azad olundu. Bu tarixi hadisənin 100 illiyi həm Azərbaycanda, həm də qardaş Türkiyədə böyük qürur hissi ilə qeyd edilir. Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakının azad edilməsinin 100 illiyi münasibətilə Azərbaycan və Türkiyə silahlı qüvvələrinin bölmələrinin iştirakı ilə keçirilən möhtəşəm parad iki ölkə arasındakı qardaşlıq münasibətlərini dünyaya bir daha nümayiş etdirdi.

İclas çıxışlarla davam edib.

# Bakıda Ukraynanın müstəqillik günü münasibətilə rəsmi qəbul təşkil edilib




Sentyabrın 26-da Bakıda Ukraynanın dövlət müstəqilliyinin 27-ci ildönümü və Ukrayna dövlətçiliyinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunan rəsmi qəbulda əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişşenko ölkəsinin 27 il ərzində keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, Ukrayna müstəqilliyini əldə etdikdən sonra bütün ölkələrlə, eləcə də Azərbaycan ilə münasibətlər qurulması üçün konkret addımlar atıb. Bu gün dost Azərbaycan ilə münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Ölkələrimiz iqtisadiyyat, energetika, humanitar və digər sahələrdə əməkdaşlıq edirlər. Diplomat ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rolunu qeyd edib. O əlavə edib ki, bu gün Ukrayna dost Azərbaycanın əldə etdiyi bütün uğurlara sevinir.



Rəsmi qəbulda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan Hökuməti adından Ukrayna xalqını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. Baş nazirin birinci müavini çıxışını Azərbaycan dilində etdiyinə görə səfirə təşəkkür edib, bunu Azərbaycanın dövlət dilinə hörmət kimi qiymətləndirib. O vurğulayıb ki, Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq əlaqələri gündən-günə güclənir. Ölkələrimiz bir sıra sahələrdə, o cümlədən iqtisadi və mədəni sahələrdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi yolu ilə inamla irəliləyirlər. Həyata keçirilən qarşılıqlı səfərlər, imzalanmış çoxsaylı sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafına təkan verir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək nümayiş etdirirlər.

Baş nazirin birinci müavini əmin olduğunu bildirib ki, Azərbaycan-Ukrayna əlaqələri gələcəkdə daha da inkişaf edəcək.

Tədbirdə "ADEX-2018" üçüncü Azərbaycan beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün Bakıda səfərdə olan "Ukroboronprom" Dövlət Konserninin baş direktoru Pavlo Bukin də çıxış edib. O, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovu "Ukroboronprom" Dövlət Konserninin fəxri nişanı ilə təltif edib.

Tədbir çərçivəsində Ukrayna hərbi sənayesinin nümunələrinin əks olunduğu sərgi təqdim edilib.

Rəsmi qəbulda, həmçinin "Donbas alov içində" adlı kitabın təqdimatı olub.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Hikmət Babaoğlu: Paşinyan BMT tribunasını siyasi terror vasitəsinə çevirdi

Paşinyan BMT tribunasını siyasi terror vasitəsinə çevirdi və elə bu səbəbdən beynəlxalq təşkilat buna qiymət verməlidir. Əks təqdirdə, istənilən işğalçı terrorist özünü baş nazir kimi təqdim edib istənilən vaxt bu tribunadan sərsəm bəyanatlar verə bilər. Məsələ bundadır ki, BMT Baş Assambleyası tamamilə fərqli gündəliklə toplansa da, Paşinyan ucuz siyasi şoumen kimi etnik separatizmə və Ermənistanın işğalçılıq siyasətinə bəraət qazandırmağa çalışır. Ancaq unudur ki, Ermənistanın işğalçı ordusunun işğal etdiyi Azərbaycan torpaqlarını dərhal azad etməsi üçün elə tribunasından danışdığı beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Onun dedikləri isə həm BMT Nizamnaməsinin 2(4)-cü maddəsinə, həm də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə ziddir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. O qeyd edib ki, əgər bu gün Paşinyanın belə hərəkətlərinə BMT və onun mandat verib, Qarabağ probleminin həlli ilə bağlı vəzifələndirdiyi ATƏT-in Minsk qrupunun kəskin reaksiyası olmasa, bu cür hadisəyə hüquqi qiymət verilməsə, onda dünya ölkələri beynəlxalq hüquqa, BMT-yə, ATƏT-ə necə inanacaqlar?! Heç olmasa nə qədər gec deyil BMT onsuz da özünün o qədər də müsbət olmayan imicini bundan sonra qorusun.

Milli Məclisin deputatı qeyd edib ki, Paşinyan liderlik etdiyi küçə hərəkatını xalq demokratiyası kimi təqdim etməyə cəhd edərək özünü gülünc vəziyyətə salır. Beynəlxalq ictimaiyyətin bu siyasi təlxəyin hədyanlarına dözməsinin səbəbi isə dünya siyasətindəki ikili standartlar və islamofobiya mərkəzlərinin Ermənistana dəstəyi ilə bağlıdır. Ancaq kimin necə yanaşmasından və Qarabağ probleminin həllinə kimin necə baxmasından asılı olmayaraq, Azərbaycan bu problemi özünün ərazi bütövlüyü çərçivəsində mütləq həll edəcək və o günü yaxınlaşdırmaq üçün bütün mümkün vasitələri və resursları səfərbər edir. **"Təkcə son günlərdə ölkəmizdə həyata keçirilən xüsusi əhəmiyyətli hadisələrə nəzər salsaq, ordumuzun uğurlu hərbi təlimlərinə, möhtəşəm hərbi parada, kosmos ölkəsi olaraq əldə etdiyimiz ən son uğurlara diqqət etsək, görərik ki, işğalçı ölkənin baş nazirini isterik bəyanatlar səsləndirməyə sövq edən səbəblərdən biri də elə Azərbaycanın bu uğurlarıdır",** - deyə H.Babaoğlu bildirib.

# Milli Məclisin deputatı QDİƏT komitəsinin Kiyevdə keçirilən iclasında iştirak edib



Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) İqtisadi, ticarət, texnologiya və ekologiya məsələləri üzrə komitəsinin Ukraynanın paytaxtı Kiyevdə keçirilən 51-ci iclasında iştirak edib. Tədbir üzv dövlətlərdə kiçik sahibkarlığın inkişafina və dəstəklənməsinə həsr edilib.

İclasda çıxış edən Ə.Amaşov Azərbaycanda sahibkarlığın inkişafından danışıb. O, Azərbaycan Prezidentinin Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" üzərində dayanaraq sənədin biznes mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi üçün maliyyə resurslarının ayrılması, onların xarici bazarlara çıxışının təmin edilməsi və sair vəzifələrindən söz açıb. Deputat, həmçinin "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı"ndan da danışıb. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin ölkənin ixrac potensialını gücləndirməyə xidmət etdiyini vurğulayan Ə.Amaşov bildirib ki, QDİƏT-ə daxil olan ölkələrdə kiçik sahibkarlıq sahəsində əməkdaşlığı gücləndirməyə də ehtiyac var. O, bunun üçün zəruri olan məsələlərə diqqət çəkib.

# Sevinc Fətəliyeva: Üçüncü milli peykimizin orbitə buraxılması ölkəmizin dinamik inkişafının göstəricisidir



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu xarici və daxili siyasət ölkənin iqtisadi potensialının hərtərəfli inkişafının təməlini qoyub. Nəticədə bu gün Azərbaycan dünyada ən sürətli iqtisadi inkişaf tempinə malik dövlətlər sırasında özünəməxsus yer tutur. Azərbaycanın kosmos ölkələri sırasına qoşulması da bu inkişafın əyani nümunəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları və əməli tədbirlər iqtisadiyyatın diversifikasiyası və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açıb. Azərbaycan Hökuməti isə iqtisadiyyatın diversifikasiyası üçün qeyri-neft sektorunun inkişafında yeni və iddialı sahə olan müasir kosmik sənayenin inkişafını qarşıya məqsəd qoyub. Yəni, Azərbaycanda İKT-nin inkişafı ilə bağlı ən prioritet sahələrdən biri kosmik sənayenin inkişaf etdirilməsidir.

Milli Məclisin deputatı qeyd edib ki, Azərbaycanda kosmik sənayenin yaradılması və ölkəmizin fəzaya artıq üçüncü milli peykini çıxarması iqtisadi baxımdan səmərəliliyin artmasına xidmət etməklə yanaşı, iqtisadiyyatın digər sahələrinin inkişafı üçün də stimul deməkdir. Eləcə də telekommunikasiya peykinin orbitə çıxarılması ilə Azərbaycan MDB məkanında Rusiyadan sonra süni peykə malik ikinci ölkə olmaqla regionda bu sahədə mövqeyini daha da möhkəmləndirir. **"Bu gün orbitə buraxılan "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatı olacaq. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək",** - deyə millət vəkili vurğulayıb.

"Azerspace-2" peykinin Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılması münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqını təbrik etməsini xüsusi vurğulayan S.Fətəliyeva deyib ki, dövlət başçısı təbrikində kosmos sənayesinin inkişafının əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyevin söylədiyi kimi, bu peyklər, ilk növbədə, Azərbaycanın informasiya təhlükəsizliyi baxımından çox önəmlidir.

**"Çox təqdirəlayiq haldır ki, "Azərspace-2" peykimizin orbitə çıxarılması Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edilir. Bunun çox böyük rəmzi mənası var. Bütövlükdə isə üçüncü milli peykimizin orbitə buraxılması ölkəmizin növbəti böyük uğuru və dinamik inkişafının göstəricisidir",** - deyə S.Fətəliyeva vurğulayıb.

# "ADEX-2018" Azərbaycan Beynəlxalq müdafiə sərgisi davam edir



Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi sentyabrın 26-da davam edib.

AZƏRTAC xəbər verir ki, sərginin ikinci günü hərbi, hüquq-mühafizə və müdafiə sənayesi, habelə əlaqədar sənaye sahələrinin mütəxəssisləri, eləcə də ali hərbi məktəblərin tələbələri üçün nəzərdə tutulub. Sentyabrın 27-də isə kommersiya strukturlarında fəaliyyət göstərən şəxslər sərgini ziyarət edə biləcəklər.

Qeyd edək ki, "ADEX-2018" sərgisində 29 ölkədən 224 şirkət və rəsmi nümayəndə heyətləri iştirak edir.

"ADEX-2018" sərgisində Azərbaycan, Belarus, Çin, Fransa, İsrail, Pakistan, İran, Rusiya, Serbiya, Türkiyə və Ukraynanın aparıcı şirkətləri 11 stendlə təmsil olunur. Şirkətlərin sayına görə ilk dördlüyə Türkiyə (41 şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi sərgiyə 270-dən artıq məmulatla qatılıb.

Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nazirliyin müəssisələrində yaradılan və istehsal olunan ən son silah və hərbi texnikalar nümayiş etdirilir. Burada iştirakçılar və ziyarətçilər Azərbaycan müdafiə sənayesinin yenilikləri, inkişaf etməkdə olan potensialı ilə yaxından tanış ola bilərlər.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) sərginin fəal iştirakçılarıdır.

Bundan başqa, bu il ilk dəfə Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı, "Vitta" elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi qatılıb.

"ADEX-2018" sərgisində Hava Hücumundan Müdafiə və Raket Əleyhinə Müdafiə sistemləri, hərbi gəmiqayırma, silah sistemlərinin hazırlanması və modernləşdirilməsi, hərbi-elmi tədqiqat, PUA sistemləri, robot-texniki kompleksləri, atıcı silahlar, döyüş sursatları və təchizatları, demilitarizasiya sistemləri, raket və artilleriya silahları, reaktiv yaylım atəşi sistemi, optik-elektron və lazer texnikası, zirehli texnika, sualtı qayıqlar və digər müasir silah, texnika və avadanlıqlar təqdim olunur.

Sərginin açıq meydançasında isə müxtəlif xarici şirkətlərin hərbi və xüsusi təyinatlı texnikası, maddi-texniki təchizat vasitələri, eləcə də ordunun gündəlik fəaliyyəti və hərbi qulluqçuların məişət təminatı üçün nəzərdə tutulan vasitələrdən ibarət statik ekspozisiya yerləşdirilib.

# Azərbaycanın üçüncü peyki "Azerspace-2" uğurla orbitə buraxılıb




Sentyabrın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında ərsəyə gələn, Azərbaycanın üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peyki Bakı vaxtı ilə saat 2:38 radələrində Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən uğurla orbitə buraxılıb. Peyk Fransanın "Arianespace" şirkətinə məxsus "Ariane 5" daşıyıcı raketi ilə orbitə buraxılıb və startdan təqribən 42 dəqiqə sonra raketin gövdəsindən uğurla ayrılıb.



"Azərkosmos" ASC-dən AZƏRTAC-a bildirilib ki, "Azerspace-2" peyki ABŞ-ın "Space Systems/Loral" (SSL) şirkəti tərəfindən yüksək etibarlı "SSL 1300" peyk platforması əsasında istehsal olunub. Peyk geostasionar orbitdə 45° şərq uzunluğu orbital mövqeyində fəaliyyət göstərəcək. "Azerspace-2" peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək.

Qeyd edək ki, yeni peykin istismarı üçün Bakıda və Naxçıvan Muxtar Respublikasında yerüstü infrastruktur yenilənib. Orbitdəki sınaq prosesləri və yekun orbital mövqeyə yerləşdirilməsi uğurla başa çatdıqdan sonra peykin idarəçiliyi istehsalçı şirkət tərəfindən "Azərkosmos" ASC-yə təhvil veriləcək ki, bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır vəziyyətdə olacaq.

"Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək.

Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki - "Azerspace-1" peykinin orbitdəki ehtiyatı olacaq. Bu da öz növbəsində "Azərkosmos"a bugünədək ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradacaq. Bir sözlə, "Azerspace-2" şirkətimizin təbiətinə görə kifayət qədər mühafizəkar və yüksək rəqabətli peyk xidmətləri bazarındakı dəyər təklifini və mövqeyini gücləndirəcək.

Qeyd edək ki, "Azerspace-2" peyki hələ orbitə buraxılmamış artıq onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "Intelsat" şirkətinə satılıb. Bu müqavilə üzrə ödənişlər layihə dəyəri və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edəcək. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır.

Ümumilikdə, dəyəri 190 milyon ABŞ dolları olan "Azerspace-2" peykinin ölkə iqtisadiyyatına 400 milyon ABŞ dolları gəlir gətirəcəyi proqnozlaşdırılır.

# Hikmət Hacıyev: Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb



Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb. O, yenə də beynəlxalq ictimaiyyəti uğursuz şəkildə aldatmağa cəhd göstərib. Dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsini, oxlokratik diktaturanın qurulmasını demokratiya kimi təqdim etməsi cəhdləri gülünc doğurur. Populizm, siyasi demoqoqiya və kütlələrin manipulyasiyası ilə məşğul olan siyasətçilərin keçən əsrin 30-40-cı illərində Avropada hansı fəsadlara yol açdığı hər kəsə yaxşı məlumdur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın baş naziri tərəfindən BMT Baş Assambleyasının 73-cü sessiyasının ümumu müzakirələrinin mövzusuna uyğun olaraq, ölkənin inkişafı, dayanıqlı inkişaf məqsədlərinin milli səviyyədə həyata keçirilməsi, qonşu dövlətlərlə sülh şəraitində yaşamaqla bağlı heç bir fakt və ya rəqəm səsləndirilməmişdir. Çünki bunlar yoxdur.

BMT Nizamnaməsinin 2(4) maddəsini kobud şəkildə pozaraq Azərbaycana qarşı gücdən istifadə edən və ölkəmizin Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal edən Ermənistan tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülmüşdür. Ermənistan öz ərazisində və işğal olunmuş torpaqlarda bir milyondan artıq köklü Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə törətmişdir.

Prezident Administrasiyasının rəsmisi deyib ki, Ermənistanın baş naziri sələflərinin siyasətini davam etdirərək təxribatçı və hərbi avantüra xarakterli addımları, ziddiyyətli və cəfəng fikirləri ilə danışıqlar prosesinin iflic hala salınmasına xidmət edir.

Bütün beynəlxalq ictimaiyyətə çox yaxşı bəllidir ki, münaqişənin həllində ən başlıca maneə Ermənistanın Azərbaycana qarşı hərbi işğalının davam etməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğudur. Hələ bu azmış kimi Ermənistanın baş naziri beynəlxalq hüquqa və BMT Nizamnaməsinə tam hörmətsizlik şəraitində işğal edilmiş ərazilərin ilhaqına çağırır.

Ermənistanın baş naziri BMT-nin mənzil-qərargahında olduğu halda, münaqişənin həllinin siyasi-hüquqi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin üzərindən qəsdən sükutla keçir.

Münaqişənin həllində irəliləyiş əldə etmək üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunlarını çıxarmalı, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına mane olmağı dayandırmalı və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Yalnız bu halda münaqişənin həlli, regionda davamlı sülh və sabitliyin təmin olunması mümkündür.

# Statistika Komitəsində Dayanıqlı İnkişaf Məqsədləri göstəricilərinə dair tematik seminar keçirilir






Sentyabrın 26-da Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə "Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi məqsədilə keyfiyyətli məlumatların hazırlanması istiqamətində hökumətin imkanlarının gücləndirilməsi" layihəsi çərçivəsində seminar öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tematik seminarda Kənd Təsərrüfatı və Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutunun nümayəndələri də iştirak edir.

Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov bildirib ki, "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"lə müəyyən edilmiş məqsəd və hədəflər üzrə irəliləyişin milli, regional və qlobal səviyyədə monitorinqinin aparılması üçün tələb olunan yüksək keyfiyyətli məlumatların təmin edilməsi baxımından BMT-nin Statistika Komissiyasının 48-ci sessiyasında təsdiq edilmiş qlobal göstəricilər sistemi böyük əhəmiyyətə malikdir. Eyni zamanda, yeni vəzifələr baxımından statistik məlumat istehsalçıları üçün çox ciddi çağırışdır: **"Bu göstəricilərə dair məlumatların kəmiyyət və keyfiyyətinin qlobal gündəliyin tələblərinə uyğun təkmilləşdirilməsi məqsədilə statistika potensialının gücləndirilməsi üçün resurslar səfərbər edilməli və səylər əlaqələndirilməlidir. Bu, beynəlxalq təcrübə mübadiləsinin aparılması və həyata keçirilən təşəbbüslərin dəyərləndirilməsini ön plana çəkir. Bu mənada Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasının monitorinqinin təşkili sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi baxımından BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının dəstəyi ilə ərsəyə gələn bu seminar vacib əhəmiyyətə malikdir".**

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri xanım Mələk Çakmak deyib ki, Dayanıqlı İnkişaf Məqsədlərinin uğurlu icrasında mühüm amillərdən biri məlumatların toplanılması, hədəflərin monitorinqi və irəliləyişin ölçülməsi sahəsində yeni, kəsərli üsulların tətbiqdir. FAO nəticə və maneələrin monitorinqi və hesabatlığını təkmilləşdirmək məqsədilə ölkələrin statistik potensialının artırılmasına dəstək göstərir.

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev isə seminarın keçirilməsinin olduqca aktual olduğunu qeyd edərək FAO-nun mandatına uyğun Dayanıqlı İnkişaf Məqsədləri göstəriciləri üzrə məlumatların dövlət qurumları ilə birgə hazırlanmasının vacibliyini diqqətə çatdırıb.

Seminar Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının beynəlxalq ekspertləri Georgi Kvinikadze və Zaza Çelidzenin FAO-nun Dayanıqlı İnkişaf Məqsədlərinin regional və milli səviyyədə monitorinqi və həyata keçirilməsində rolu, FAO-nun himayəsi altında olan 21 göstəricinin hər birinin metodologiyası, göstəricilərin işlənib hazırlanmasında lazım olan məlumatlar və onların əldə edilməsində ölkə tərəfindən atılacaq addımlar, eyni zamanda, həmin göstəricilərin işlənib hazırlanması prosedurları və bu proseduralar daxilində FAO ilə qarşılıqlı əlaqələrin yaradılması mövzularını əhatə edən təqdimatları ilə davam edib.

Üç gün davam edəcək tədbirdə əhalinin ərzaq təhlükəsizliyi, qida itkiləri, kənd təsərrüfatı sahəsində məhsul istehsalı ilə məşğul olan müəssisələrin məhsuldarlığı, kənd təsərrüfatı və ərzaq istehsalı üçün nəzərdə tutulan bitki və heyvan mənşəli genetik ehtiyatları, dayanıqlı inkişaf baxımından kənd təsərrüfatına yararlı torpaqlar, ərzaq bazarında qiymət anomaliyaları, sudan istifadə səmərəliliyinin dəyişməsi, su ehtiyatlarına düşən yükün səviyyəsi, bioloji dayanıqlı həddə olan balıq ehtiyatları, ekoloji cəhətdən rasional balıqçılıq, habelə meşə təsərrüfatının dayanıqlı idarəedilməsi sahəsində monitorinq və qiymətləndirmənin aparılması üçün mövcud göstəricilər üzrə reprezentativ məlumat istehsalı və mübadiləsinin bütün mərhələlərinə toxunulacaq.

# Oktyabrda Azərbaycanda ilk dəfə beynəlxalq "İnnovasiyalar həftəsi" keçiriləcək






Oktyabrın 26-30-da Azərbaycanda ilk dəfə olaraq beynəlxalq "İnnovasiyalar həftəsi" keçiriləcək. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Heydər Əliyev Mərkəzi ilə birgə həyata keçirdiyi layihə çərçivəsində yüksək texnologiyalar, innovasiyalar sahəsində ən son yeniliklərlə tanışlıq, konfrans, forum və yarışlarda iştirak etmək, təşkil olunacaq sərgini ziyarət etmək, həmçinin dünyanın ən ağıllı robotu hesab olunan "Sofiya" ilə ünsiyyət qurmaq imkanı yaranacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 26-da Azərbaycanda ilk dəfə keçiriləcək beynəlxalq "İnnovasiyalar həftəsi"nə həsr olunmuş mətbuat konfransında məlumat verilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin rəhbəri Rəşad Əzizov qeyd edib ki, "İnnovasiyalar həftəsi" çərçivəsində Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Azərbaycan Kiberidman Federasiyası, "Keepface", "Microsoft" və digər şirkətlərin dəstəyi ilə silsilə tədbirlər təşkil olunacaq. "İnnovasiyalar həftəsi"ndə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə "Microsoft" şirkətinin təşkil etdiyi "dəyirmi masa"da investisiya mühitinin inkişafı ilə bağlı məsələlər müzakirə olunacaq, həmçinin Azərbaycan Kiberidman Federasiyası ilə birgə "Baku Open Cyber Cup" turniri keçiriləcək.

Eyni zamanda, "İnnovasiya həftəsi"ndə "İdeyadan Biznesə" layihəsi çərçivəsində keçirilən startap turların qaliblərinin yarışacağı böyük final təşkil ediləcək. "İnnovasiya həftəsi" çərçivəsində Yüksək Texnologiyalar Parkı tərəfindən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, eləcə də bir sıra dövlət qurumları üçün zəruri məsələlərin real zaman kəsiyində həlli yollarını təklif edən ideya yarışı ("Hackathon") təşkil ediləcək. Burada iştirakçılar qarşıya qoyulan problemin çevik və innovativ həlli yollarını təklif etməlidirlər. Qalib ideyalar tətbiq olunmaqla yanaşı, onların müəllifi həm də mükafatlandırılacaq.

Eyni zamanda, Yüksək Texnologiyalar Parkı ilə "AstroLabs" akselerasiya mərkəzi arasında yerli startaplar üçün xarici investisiyaların cəlb edilməsi üzrə memorandumun imzalanması da nəzərdə tutulub.

"İnnovasiyalar həftəsi"nin ən maraqlı tədbirlərindən biri "Qlobal İnfluenser Günü" (Global İnfluencer Day) olacaq. Oktyabrın 26-da Heydər Əliyev Mərkəzində keçiriləcək "Qlobal İnfluenser Günü" maraqlı çıxışlar, təqdimatlar, seminarlarla yadda qalacaq. Tədbir çərçivəsində ən uğurlu süni intellekt nümunəsi, ilk vətəndaş robot "Sofiya" Azərbaycana gələcək.

Heydər Əliyev Mərkəzinin nümayəndəsi Orxan Həbibov bildirib ki, mərkəz fəaliyyət göstərdiyi müddətdə digər sahələrlə yanaşı, informasiya-texnologiyaları sahəsində də bir sıra layihələr həyata keçirib. Bu baxımdan Heydər Əliyev Mərkəzi ölkəmizdə ilk dəfə təşkil olunacaq beynəlxalq "İnnovasiyalar həftəsi"nin tərəfdaşları sırasında da yer alır.

"Keepface" şirkətinin rəhbəri Emin Vəli təmsil etdiyi şirkətin fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, Bakıda yaradılan şirkət hazırda 35 ölkədə fəaliyyət göstərir. **"Komandamız qlobal təcrübəli insanlardan ibarətdir, biz dünyada baş verən trendləri tətbiq edərək öz platformamızı yaratmışıq və sürətlə böyüməkdəyik. Hazırda "Keepface" bazasında 14 mindən çox insan qeydiyyatdan keçib. Qeydiyyatdan keçmiş şəxslərin auditoriyası 1 milyard nəfərə yaxındır. Bizim bazadan qeydiyyat keçənlərin sayı genişlənir",** - deyə şirkət nümayəndəsi bildirib.

"FA International Trade Events"in rəhbəri Nail Babayev gələn ay ölkəmizdə keçiriləcək tədbirə mindən artıq iştirakçının qatılacağını deyib. Qeyd edib ki, tədbirin əsas spikeri robot "Sofiya"dır. "Sofiya" robotlaşdırılma, süni intellekt, xüsusi bacarıqların birləşməsi əsasında yaradılmış dünyada ən qabaqcıl insanabənzər robotdur. "Sofiya" sahib olduğu süni intellekt sayəsində sərbəst şəkildə interaktiv dialoqlara daxil ola, fərqli mövzularda məntiqli, analitik həllər təklif edə bilir. Robot kənar müdaxilə olmadan öz sosial şəbəkə hesablarından aktiv istifadə edə, suallara məntiqli cavablar verə bilir.

Tədbirin son günü kontent turun keçiriləcəyini deyən şirkət rəhbəri bildirib ki, tur çərçivəsində influenserlər həm Azərbaycan mətbəxi, həm də Bakının turistik məkanları ilə tanış olub, onunla bağlı kontent hazırlayacaqlar.

Azərbaycan Kiberidman Federasiyasının rəhbəri Ramil Əliyev Azərbaycan Kiberidman Federasiyası ilə birgə "Baku Open Cyber Cup" turniri keçiriləcəyini diqqətə çatdırıb. Vurğulayıb ki, turnirin məqsədi kiberidmanın ölkəmizdə inkişafını təşviq etmək, gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarına və kompüter texnikasına marağını artırmaqdır. "Baku Open Cyber Cup" çərçivəsində döyüş və futbol üzrə kompüter oyunları da təşkil ediləcək. Peşəkar hakimlərin idarə edəcəyi oyunlarda əvvəlcədən qeydiyyatdan keçərək iştirak etmək mümkün olacaq. Turnirin qalibləri isə Təşkilat Komitəsi tərəfindən mükafatlandırılacaq.

Qeyd edək ki, "Qlobal İnfluenser Günü" tədbirinin təşkilatçıları "Keepface DMCC" və "FA International Trade Events"dir. Qlobal tədbir Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikası Turizm Agentliyi, ADA Universiteti, Azərbaycandakı ABŞ Ticarət Palatası, Azərbaycan Konqreslər Bürosu, CAMCA network tərəfindən dəstəklənir.

"UBM", "Leo Burnett Azərbaycan", "Mediamark", "Adzone", "Canvas", "Times Consulting", "Alibayov Communication & Consulting"in müxtəlif aspektlərdə kömək etdiyi "Qlobal İnfluenser Günü"nün sponsorları "Astrolabs", "Azersun", "Azgranata", "SATGroup", "PWC", "Roof Academy"dir. "Qlobal İnfluenser Günü" tədbirinin biletləri iTicket.az satış məntəqələri və saytında satılır.

# Sahibkarlığa Kömək Milli Fonduna ayrılan vəsaitlərdən istifadəyə dair auditin nəticələri ilə bağlı hesabat dinlənilib

Hesablama Palatasının kollegiya iclasında Sahibkarlığa Kömək Milli Fonduna ayrılan vəsaitlərdən istifadəyə dair auditin nəticələri ilə bağlı hesabat dinlənilib, nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiq olunub.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, auditin nəticələri ilə bağlı qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına kollegiya qərarının surətinin göndərilməsi və audit tədbirlərinin nəticələri barədə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması qərara alınıb.

İclasda aparılmış audit tədbirlərinin nəticələri üzrə təqdimatların icrası vəziyyəti barədə auditorların məlumatı dinlənilib, müvafiq qərarlar qəbul edilib, həmçinin Hesablama Palatasının iş planında nəzərdə tutulmuş nəzarət tədbiri ilə bağlı proqram təsdiqlənib.

Kollegiya iclasında Hesablama Palatasının dövlət büdcəsinin icrasına nəzarət fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"na bəzi əlavələrə dair, həmçinin dövlət büdcəsinin vəsaiti hesabına aparılmış dövlət satınalmaları haqqında qurumlar tərəfindən təqdim edilməli məlumat formaları müzakirə edilərək təsdiq olunub.

# Vüqar Rəhimzadənin məqaləsi Polşanın "Thompson Reuters" indeksli jurnalında dərc olunub

"İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Slavyan Universitetinin dosenti Vüqar Rəhimzadənin yeni elmi məqaləsi Polşada nəşr olunan "Thompson Reuters" indeksli "Journal of Juristic Papyrology" jurnalında dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda demokratik cəmiyyətin əsas atributlarından biri kimi mətbuatın inkişafına göstərilən diqqət və qayğıdan, medianın müstəqil ictimai institut kimi formalaşmasının elmi əsaslarından bəhs edilir. Qeyd olunur ki, KİV cəmiyyətin siyasi sisteminin mühüm tərkib hissəsi kimi dövlət və cəmiyyət arasında mühüm əlaqələndirici funksiyanı yerinə yetirir. Bu gün mətbuat cəmiyyətdə sabitləşdirici rola malikdir və sosial dəyişikliklərin təkanverici qüvvəsi kimi çıxış etməyə qadirdir. Bu da öz növbəsində dövlətin informasiya siyasətinin əhəmiyyətini müəyyən edir. Cəmiyyətin informasiya tələbatının ödənilməsi funksiyasını yerinə yetirən mətbuat zamanın, dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşir, yeni-yeni vəzifələrin icrasına öz töhfəsini verməyə çalışır. Ən ciddi dəyişikliklər hər şeydən öncə informasiyanın təsir imkanlarının qlobal miqyasda güclənməsi ilə əlaqədar olaraq dövlət sərhədlərinə və auditoriyanın milli fərqlərinə məhəl qoymayan televiziyada baş verir. Bu, daha aşkar formada internet sistemində nəzərə çarpır. Bütün planet miqyasında vahid informasiya məkanının bərqərar olması müasir mərhələdə informasiya sənayesinin obyektiv zəruriliyidir.

Müəllif diqqətə çatdırır ki, Azərbaycan dövləti elmin inkişafının və iqtisadiyyatın texnoloji cəhətdən modernləşdirilməsinin ən perspektivli istiqamətlərini müəyyənləşdirib. Yüksək rəqabətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunun genişləndirilməsi, infrastrukturun modernləşdirilməsi, sahələr üzrə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edən əsas amillərdir. Bu istiqamətdə mühüm addımlardan biri məhz Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin kosmik sənayenin inkişafına göstərdiyi dəstəkdir.

Müəllif yazır ki, informasiya sahəsindəki siyasət daha az öyrənilmiş və daha çox mürəkkəb olan siyasi fəaliyyət növüdür. Ən yeni informasiya və telekommunikasiya texnologiyalarının inkişafı özü ilə təkcə texnoloji innovasiyalar, elm tutumlu istehsala keçid və s. gətirmir, həmçinin insan məskəninin bütün informasiya mühitini, ictimai həyatın bütün sosiomədəni məzmununu kökündən dəyişir, informasiya sahəsini cəmiyyətdə üstün mövqeyə çıxarır.




Azərbaycan mətbuatının keçdiyi inkişaf yolunun, yeni texnologiyaların inkişafı fonunda əldə olunan uğurların əks edildiyi məqalədə bildirilir ki, bu gün İKT Azərbaycanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin inkişafı, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişafı üçün əlverişli vasitə olaraq qəbul edilir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır.

Böyük maraq doğuran məqalədə bir daha Azərbaycan mətbuatının dünya informasiya məkanına inteqrasiyasından və çoxsaylı nailiyyətlərindən geniş bəhs edilir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

KİVDF

# Azərbaycanın regionlarında arıçılığın inkişafı diqqət mərkəzində saxlanılır

*Hazırda ölkə üzrə təsərrüfatlarda təxminən 300 min arı ailəsi var və respublikada illik bal istehsalı 3 min tona çatdırılıb*



Yeni iqtisadi şəraitdə Azərbaycanın bölgələrində regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarına uyğun olaraq həm daxili bazarda böyük tələbat duyulan, həm də ölkəmiz üçün yeni ixrac imkanları yaradan məhsulların istehsalının artırılması diqqət mərkəzində saxlanılır. Belə məhsullardan biri də təbii baldır. Təbii bal qiymətli ərzaq məhsuludur və onun həm daxili, həm də xarici bazarlarda satışı ilə bağlı hər hansı bir problem yoxdur. Azərbaycanın regionlarında arıçılıq sahəsində tarixən mövcud olan ənənələri dirçəltməklə, həmçinin ana təbiətin imkanlarından bəhrələnməklə təbii bal istehsalını əhəmiyyətli dərəcədə artırmaq mümkündür.

Son illərdə respublikamızda arıçılığın inkişafı müxtəlif tədbirlər vasitəsilə geniş təşviq edilir. O cümlədən paytaxt Bakıda keçirilən arıçılıq məhsullarının sərgi-satış yarmarkaları regionlarda fermerlərin gəlirli sahə olan arıçılığa marağını artırıb. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata əsasən hazırda Bakıda növbəti belə yarmarkanın keçirilməsinə ciddi hazırlıq işləri görülür.

Yeri gəlmişkən, nazirlik arıçıların çoxsaylı müraciətlərini nəzərə alaraq arıçılıq məhsullarının növbəti respublika sərgi-satış yarmarkasının keçirilmə məkanını dəyişib. Belə ki, bu dəfə yarmarka 2018-ci ilin 5-28 oktyabr tarixlərində Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski prospekti, 10 ünvanında (Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisi) keçiriləcək. Sərgi-satış yarmarkasının açılışı  oktyabrın 5-də, saat 12.00-da baş tutacaq.

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildirilir ki, yarmarkada iştirak etmək istəyən arıçılar  öz məhsullarını şəxsiyyət vəsiqəsini təqdim etməklə sentyabrın 15-dən 30-dək yuxarıda qeyd edilən ünvandakı mühafizə olunan anbara təhvil verməlidirlər. Qeyd edək ki, yalnız göstərilən müddətdə anbara təhvil verilmiş və müayinə olunmuş məhsullar yarmarkada satışa çıxarılacaq. Arıçılıq məhsullarının anbara qəbulu iqtisadi rayonlar üzrə əvvəlcədən tərtib olunmuş cədvəl əsasında həyata keçirilir. Eyni zamanda şəffaflığın təmin edilməsi məqsədi ilə 2018-ci il oktyabrın 4-də yerlərin iqtisadi rayonlar üzrə və fərdi qaydada püşkatması keçiriləcək.

## RESPUBLİKADA ARIÇILIĞIN İNKİŞAFI ÜÇÜN FERMERLƏRLƏ MÜVAFİQ QURUMLARIN SIX ƏMƏKDAŞLIĞI VACİB AMİLLƏRDƏN BİRİDİR

Qeyd edək ki, respublikada arıçılığın inkişafı üçün fermerlərlə müvafiq qurumların sıx əməkdaşlığı vacib amillərdən biridir. Bu fikir kənd təsərrüfatı naziri İnam Kərimovun Azərbaycan Arıçılar Assosiasiyasının üzvləri ilə görüşündə də vurğulanıb. Görüşə assosiasiyanın rəhbər heyəti, fərdi arıçılıq təsərrüfatının təmsilçiləri qatılıblar.

Nazirlikdən  verilən məlumata görə, görüşdə kənd təsərrüfatı naziri İnam Kərimov nazirliyin assosiasiyalarla əməkdaşlığı vacib saydığını deyib. Bu məqsədlə nazirlikdə struktur dəyişiklikləri aparıldığını deyən nazir qurumun tərkibində fermerlərlə, assosiasiyalarla və kooperativlərlə iş şöbəsinin yaradıldığını xatırladıb. İnam Kərimov nazirliyin öz fəaliyyətində fermerlərə yaxın olmaq prinsipini əsas götürdüyünü vurğulayıb, indiyə kimi bir çox ixtisaslaşmış assosiasiyaların nümayəndələri ilə görüşdüyünü diqqətə çatdırıb. İnam Kərimov daxili bazarda keyfiyyətli, ekoloji təmiz arıçılıq məhsullarına böyük ehtiyac olduğunu deyib, bal və digər arıçılıq məhsullarının ixrac potensialının artırılmasının vacibliyini vurğulayıb.

Azərbaycan Arıçılar Assosiasiyasının sədri, “Api-Delta” arıçılıq şirkətinin direktoru Bədrəddin Həsrətov qurumun 2015-ci ildə yaradıldığını, hazırda 5 şəhər və 44 rayonda assosiasiyanın yerli bölmələrinin fəaliyyət göstərdiyini vurğulayıb. Arıçılığın spesifik sahə olduğunu bildirən assosiasiya sədri qeyd edib ki, ölkə üzrə təsərrüfatlarda təxminən 300 min arı ailəsi var. Azərbaycanda ildə 3 min ton bal istehsal olunduğunu deyən Bədrəddin Həsrətov bu sahəyə subsidiya verilməsini vacib sayıb. Subsidiyaların verilməsi ilə əlaqədar arı ailələrinin qeydiyyata alınması prosesinə Arıçılar Assosiasiyasının da cəlb olunmasını təklif edən sədr bildirib ki, bu sahədə görüləcək kompleks tədbirlər daxili bazarın tam şəkildə yerli məhsulla təmin olunmasına və xarici ölkələrə məhsul ixracına imkan verəcək.

Görüşdə çıxış edən “Dəlidağ” arıçılıq təsərrüfatının rəhbəri Sabir Mustafayev, “AQS Group” şirkətinin rəhbəri Natiq Mədətov, “Balçı” arıçılıq təsərrüfatının rəhbəri, fərdi təsərrüfatçılar Şahin Cəfərov, Şəhriyar Nurullahi, Qadir Mustafayev arıçılıq sektorunda mövcud vəziyyəti təhlil edib, bu sahənin inkişafına dair çoxsaylı təkliflər səsləndiriblər. İştirakçılar bal yarmarkalarının təşkili, daimi bal satışı mərkəzlərinin, arılar üçün yem bazasının yaradılması, arıçılıq kooperativlərinin təsis olunması, seleksiya işlərinin aparılması, arı xəstəliklərinə qarşı mübarizənin düzgün təşkili, təsərrüfatların mexanikləşdirilməsi, “Aqrolizinq”in xətti ilə ölkəyə arı pavilyonlarının gətirilməsi, nektar bazasını artırmaq üçün xüsusi bitkilərin əkilməsi, arıçılıq təsərrüfatlarının işinin düzgün təşkilinə yardım üçün kredit ittifaqlarının yaradılması, Assosiasiyanın beynəlxalq əlaqələrinin genişləndirilməsi ilə bağlı təkliflər səsləndiriblər.

Nazir İnam Kərimov isə arıçılar arasında maarifləndirmə işinin aparılmasının vacib olduğunu deyib. Rayon və şəhərlərdə Dövlət Aqrar İnkişaf mərkəzlərinin (DAİM) yaradıldığını xatırladan nazir bildirib ki, DAİM-lərdə aqrar sektorun müxtəlif sahələrinə dair qrafik üzrə təlimlər keçiriləcək, bu təlimlərə arıçılar da aktiv cəlb olunacaqlar. İnam Kərimov arıçıların yaxın müddətdə DAİM-lərin fəaliyyətinin effektini açıq şəkildə hiss edəcəyini bildirib, onları bu mərkəzlərlə sıx əlaqə qurmağa çağırıb. Bal ilə bağlı ekoloji təmiz məhsul standartının müəyyənləşməsinə ehtiyac olduğunu vurğulayan nazir arıçılıq məhsulları ilə bağlı brendlərin yaradılmasını vacib sayıb.

## BU İLDƏN  ARIÇILAR SAXLADIQLARI HƏR ARI AİLƏSİNƏ GÖRƏ 10 MANAT MƏBLƏĞİNDƏ SUBSİDİYA ALACAQLAR

Bir sözlə, arıçılığın inkişafı diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, Azərbaycanda arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə bu ildən etibarən subsidiya veriləcək. Arıçılar saxladıqları hər arı ailəsinə (pətəyə) görə 10 manat məbləğində subsidiya alacaqlar. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata əsasən, artıq Nazirlər Kabineti “Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası”nı təsdiq edib. Yeni qayda “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə təsdiqlənib.

Arı ailələrinin (pətəklərin) identikləşdirilməsi və hər arı ailəsinə (pətəyə) görə subsidiyanın verilməsi üçün arıçılıq təsərrüfatları “Arıçılıq təsərrüfatlarının uçotu Qaydası”nın tələblərinə uyğun uçota alınmalıdır. Subsidiya verilməsinin təşkili üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən rayon (şəhər) komissiyaları yaradılacaq.

Arıçılar ərizələrini, fiziki şəxslər üçün şəxsiyyət vəsiqəsinin, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər üçün VÖEN-in surətini, subsidiyanın köçürüləcəyi bank hesabına dair məlumatları hər il aprel ayının 30-dək arıçılıq təsərrüfatının yerləşdiyi rayon (şəhər) komissiyalarına təqdim etməlidirlər.

## ARIÇILARA SUBSİDİYA VERİLMƏSİ İLƏ BAĞLI QƏRAR 5 İL MÜDDƏTİNDƏ QÜVVƏDƏ OLACAQ

Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə subsidiya verilməsi ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi qaydaları KİV-ə şərh edən “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin nümayəndəsi, ekspert Nicat Nəsirli bildirib ki, subsidiyanı təyin edəcək komissiyanın iş prinsipləri aşağıdakı kimidir:

1. 15 gün müddətində yerli icra hakimiyyətinin inzibati ərazi dairəsi üzrə nümayəndəsi bələdiyyə nümayəndəsi və arıçının iştirakı ilə məlumatları yerində dəqiqləşdirərək arı ailələrinin mövcudluğunu yoxlayır və düzbucaqlı formada plastik materialdan hazırlanan lövhəni şrup vasitəsilə pətəyin yuxarı sağ küncünə bərkitməklə, arı ailəsinin (pətəyinin) identikləşdirilməsini təmin edir;

2. Arı ailələrinin (pətəklərin) yoxlanılması və mövcudluğu haqqında rayon (şəhər) komissiyaları tərəfindən akt tərtib olunur;

3. Aprel ayının 30-dan sonra əldə olunan arı ailələri növbəti ildə identikləşdirilir və hər arı ailəsinə (pətəyə) görə subsidiya təyin olunur;

4. Arı ailələri satıldıqda, bağışlandıqda, təbii fəlakət, xəstəliklər və digər səbəblər nəticəsində məhv olduqda, o cümlədən identikləşdirmə kodu (lövhə) itirildikdə arıçı 5 gün müddətində komissiyaya məlumat verməli və aparılmış identikləşdirilmə ləğv edilməlidir;

5. Hər il iyunun 15-dək subsidiya veriləcək arıçılar və onların saxladıqları arı ailələri (pətəkləri), subsidiyanın məbləği barədə məlumatlar “Elektron kənd təsərrüfatı” informasiya sisteminə daxil edilməli, hesablanmış subsidiyanın arıçının bank hesabına köçürülməsi üçün onların bank hesabına dair məlumatlar nazirliyə göndərilməlidir;

6. Arıçıya dair sənədlər mərkəzi komissiya tərəfindən baxılmalı və 20 gün ərzində subsidiyanın verilməsi ilə bağlı sifariş Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edilməlidir.

**“Bank hesablarının açılması və plastik kartların hazırlanması arıçıların öz vəsaiti hesabına həyata keçirilməlidir, subsidiya mexanizmi yaxın 5 il müddətində qüvvədə olacaq”,** - deyə ekspert bildirib.

## ARIÇILARA SUBSİDİYA AYRILMASI REGİONLARDA BU SAHƏNİN  İNKİŞAFINA GÜCLÜ STİMUL VERƏCƏK

Arıçılara saxladıqları hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya müəyyən edilməsi arıçılığın inkişafına böyük dəstəkdir. Bu sözləri KİV-ə açıqlamasında 40 ildən çoxdur arıçılıq sahəsində fəaliyyət göstərən Ağdam rayon sakini Solmaz Nəcəfova deyib. Ağdam rayonunun Mollalar kəndindən olan Solmaz xanım hələ uşaq vaxtlarından arıçılığa böyük maraq göstərdiyini bildirib: **“Ata-babadan arıçılıqla məşğul olmuşuq. Bu sahəyə maraq da məndə kiçik yaşlarımdan yaranıb. Odur ki, orta məktəbi bitirdikdən sonra texniki peşə məktəbində arıçılıq ixtisası üzrə təhsil aldım. O zaman 70-dən artıq arı ailəsi saxlayırdıq. Bu işdə atamın ən yaxın köməkçisi idim. Gözəl vaxtlar idi. Yaz mövsümündə arıları Kəlbəcər rayonuna aparırdıq. Kəndimiz işğal olunandan sonra çətinliklərə baxmayaraq, ailəmizin arıçılıq ənənələrini davam etdirdim. Uzun müddət yol kənarlarında, çətin şəraitdə yaşadıq. Hazırda Quzanlıda dövlətimiz tərəfindən inşa edilən qəsəbədə evlə təmin edilmişik. Arıları da burada saxlayırıq”.**

(davamı növbəti sayımızda)

**Mübariz ABDULLAYEV**

# Türkiyə KİV-ləri “ADEX-2018” üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi barədə yazır




Türkiyənin aparıcı KİV-ləri sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan “ADEX-2018” üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin KİV-ləri sərginin keçiriləcəyi barədə əvvəlcədən də anons xarakterli materiallar yaymışdı.

Anadolu agentliyi, TRT HABER televiziya kanalı, “Axşam”, “Sabah”, “Star” qəzetləri və digər KİV-lər Bakıda təşkil olunan “ADEX-2018” üçüncü Azərbaycan beynəlxalq sərgisinin əhəmiyyətindən, o cümlədən sərgidə nümayişə çıxarılan Türkiyənin müdafiə sənayesi məhsullarından yazır. Sərgi çərçivəsində Azərbaycanın və Türkiyənin müxtəlif qurumları arasında müdafiə sənayesi sahəsində müqavilələrin imzalanmasına diqqət çəkən media orqanları bildirir ki, bu sahədə əməkdaşlığın genişlənməsi hər iki tərəfin maraqlarını əks etdirir. Materiallarda diqqəti çəkən mühüm məqamlardan biri də Türkiyənin sərgidə daha geniş şəkildə və fəal iştirakı ilə bağlıdır. O cümlədən Azərbaycanın sərgiyə çıxardığı məhsullar, hərbi texnika barədə oxuculara məlumat verilir.

# Keyfiyyətsiz toyuq məhsullarının qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işi başlanıb

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin məlumatı*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi əhalinin sağlamlığının qorunması, qida təhlükəsizliyinin təmin edilməsi və bu növ məhsulların təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin daha da artırılması istiqamətində reallaşdırılan ardıcıl və məqsədyönlü tədbirlər davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, bəzi hallarda ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən şəffaf prosedurlar əsasında sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən sui-istifadə edilməklə qida təhlükəsizliyi qaydalarının pozulması hallarına yol verilir və belə hallara qarşı ən ciddi mübarizə tədbirləri görülür.

Belə ki, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi ilə birgə müvafiq sahədə mövcud olan xidmət qaydalarının pozulması hallarının qarşısının alınması məqsədi ilə müxtəlif ünvanlarda yerləşən emal sahələrinə baxış keçirilərkən Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində Rəsulov Əlfiqar Əmi oğlu və Hacıyev Fizuli Salman oğluna məxsus qanunsuz fəaliyyət göstərən kəsim sexlərində normativ-hüquqi aktlara və sanitar-gigiyena tələblərinə əməl edilmədən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqla broyler istehsalı olan cəmi 1664 toyuq və 68 kiloqram toyuq içalatının mənşəyi məlum olmayan kimyəvi maddədən istifadə edilib rənglənərək “kənd toyuğu” adı altında satışının həyata keçirilməsi müəyyənləşdirilib.

Agentlik tərəfindən aşkar edilmiş hüquqpozma faktlarının araşdırılması və aidiyyəti şəxslər barəsində qanuni tədbirlərin görülməsi məqsədilə Baş Prokurorluğa müraciət edilib, keyfiyyətsiz toyuq məhsullarının qanunsuz dövriyyəsi ilə əlaqədar toplanmış materiallar əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində fakta görə Cinayət Məcəlləsinin 178.2.4-cü (dələduzluq, yəni etibardan sui-istifadə etmə xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 192.1-ci (qanunsuz sahibkarlıq vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda, habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Agentliyin Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında aparılan sınaqlar nəticəsində Əlfiqar Rəsulova məxsus kəsim sexindən götürülmüş serebris toyuq, broyler toyuq və toyuq içalatında ümumi mikrob sayının normativ tələblərlə müəyyən edilmiş məqbul səviyyədən çox olduğu, həmçinin patogen mikroorqanizmlərin və “Salmonella”nın mövcud olması aşkarlanıb. Həmçinin su nümunələrində aparılan müayinələr nəticəsində “Salmonella” (S.typhimurium), E.coli və işçilərin əllərindən götürülmüş yaxma nümunələrində aparılmış müayinələrə əsasən bağırsaq çöpü qrupu bakteriyaları (E.coli) aşkar edilib. Toyuğun rənglənməsində istifadə olunan boyaq maddənin xromotoqrafiya üsulu ilə müayinəsi nəticəsində qida sənayesində istifadəsinə icazə verilməyən kimyəvi maddə olduğu müəyyən edilib.

Aparılmış istintaqla Əlfiqar Rəsulovun vergi orqanlarında uçota alınmadan qanunsuz sahibkarlıqla məşğul olmaqla başqa şəxslərlə qabaqcadan əlbir olub ayrı-ayrı şəxslərdən mənşəyi məlum olmayan diri toyuqları almasına, ona məxsus həyətyanı sahədə yerləşən tikilidə bunun üçün heç bir xüsusi avadanlıqla təchiz edilməyən, normativ aktların tələblərinə və sanitar-gigiyenik qaydalara cavab verməyən şəraitdə toyuqların kəsimini, təmizlənməsini və saxlanılmasını həyata keçirdikdən sonra qəsdən həmin toyuqların tam keyfiyyətli, buna dair normativ aktların tələblərinə və sanitar-gigiyenik qaydalara cavab verən satışa hazır məhsul olmasını ayrı-ayrı ticarət obyektlərinin nümayəndələrinə yalandan bildirərək, ümumilikdə 23 min 407 manat dəyərində belə məhsulları onlara satmasına, habelə cəmi 3 min 255 manat dəyərində toyuq məhsullarını aldatma yolu ilə satmağa cəhd etməsinə şübhələr üçün əsaslar müəyyən edildiyindən ona Cinayət Məcəlləsinin 29,178.2.1-ci, 29,178.2.2-ci, 178.3.2-ci və 192.1-ci maddələri ilə ittiham elan olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Həmçinin Füzuli Hacıyevə məxsus kəsim sexindən götürülmüş serebsris toyuq, broyler toyuq və toyuq içalatında aparılan müayinələr nəticəsində ümumi mikrob sayının normativ tələblərlə müəyyən edilmiş məqbul səviyyədən çox olduğu, həmçinin patogen mikroorqanizmlərin və “Salmonella”nın mövcud olması aşkarlanıb. Eyni zamanda, toyuq cəmdəyinin daxili orqanlarında bakterioloji əkmə, mikroskopik və bioloji müayinələr aparılıb. Spesifik boy vermiş əkmələrdən yaxmalar hazırlanaraq mikroskopiya edilib. Habelə işçilərin əllərindən götürülmüş yaxma nümunələrində aparılmış müayinələrə əsasən müvafiq olaraq “Salmonella” (Sştyphimurium), E.coli və qızılı stafilokokk (S.aureus) aşkar edilib.

İstintaqla Fizuli Hacıyevin ayrı-ayrı şəxslərdən mənşəyi məlum olmayan diri toyuqları almasına, ona məxsus həyətyanı sahədə yerləşən tikilidə bunun üçün heç bir xüsusi avadanlıqla təchiz edilməyən, normativ aktların tələblərinə və sanitar-gigiyenik qaydalara cavab verməyən şəraitdə toyuqların kəsimini, təmizlənməsini və saxlanılmasını həyata keçirdikdən sonra qəsdən həmin toyuqların tam keyfiyyətli, buna dair normativ aktların tələblərinə və sanitar-gigiyenik qaydalara cavab verən satışa hazır məhsul olmasını ayrı-ayrı ticarət obyektlərinin nümayəndələrinə yalandan bildirərək, ümumilikdə 1548 manat dəyərində belə məhsulları onlara satmasına, habelə cəmi 2642 manat dəyərində toyuq məhsullarını aldatma yolu ilə satmağa cəhd etməsinə şübhələr üçün əsaslar müəyyən edildiyindən ona Cinayət Məcəlləsinin 178.2.2-ci və 29,178.2.2-ci maddələri ilə ittiham elan olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş hər növ qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər görüləcək.

# Bakcell “Karyerada ilk addım” devizi altında keçirilən aktiv məşğulluq tədbirinə qoşuldu




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi “Bakcell” sentyabrın 26-da “Odlar Yurdu” Universitetində “Karyerada ilk addım” devizi altında təşkil edilmiş aktiv məşğulluq tədbirinə qatılıb.

Aktiv məşğulluq tədbirləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Bakı şəhərində ali təhsil müəssisələrində tələbə və məzunların əmək bazarına uğurlu inteqrasiyası üçün mütəmadi olaraq keçirilir.

Məşğulluq tədbirində 50-dən çox işəgötürən müəssisə və təşkilat iştirak edib. Tədbir zamanı iştirakçılara Bakcell şirkətinin satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları təqdim olunub. Şirkətin nümayəndələri tələbə və məzunlarla müsahibələr keçirib. Tədbirdə quraşdırılmış Bakcell stendi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti, Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənclərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət ADA Universiteti, Qərbi Kaspi Universiteti, ADNSU və ADAU-nun keçirdiyi karyera sərgilərində iştirakla yanaşı, özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib.

Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76,   498-82-21
498-81-24,   498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU